

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 02 - fevral 2024



**İNANIRAM Kİ, MƏNİM AXIRA ÇATDIRA BİLMƏDİYİM TALEYÜKLÜ MƏSƏLƏLƏRİ, PLANLARI, İŞLƏRİ İLHAM ƏLİYEV BAŞA ÇATDIRA BİLƏCƏK**

HEYDƏR ƏLİYEV
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ



Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

# QANUNÇULUQ

## hüquq jurnalı

N 2 - fevral 2024

**TƏSİSÇİ:**

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi

**BAŞ REDAKTOR:**

Fərid Əhmədov

**REDAKSİYA HEYƏTİ:**

Fuad Ələsgərov
Toğrul Musayev
Azər Cəfərov
Adil Əliyev
Cavid Hüseynov
Elçin Xələfov

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndidə səs veriblər ....4
"2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2024-cü il 13 fevral tarixli Qərarı ....4
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib ....7
Prezident İlham Əliyevin andiçmə mərasimində nitqi ....9
Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ....20
Şəhidlər xiyabanını ziyarət ....20
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfəri ....21

## XOCALIYA ƏDALƏT

XX əsrin ən dəhşətli cinayətlərindən biri - Xocalı soyqırımından 32 il ötür ....23
Prezident İlham Əliyevin Xocalı şəhərinə səfəri....24
Sükut dəqiqəsi ....25

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

"F.T.Əhmədovun Azərbaycan Respublikasının ədliyyə naziri təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 fevral tarixli Sərəncamı ....26
Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş ədliyyə nazirini kollektivə təqdim edib ....27
Milli Məclisin plenar iclasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib ....28
Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzə" (2023-cü il üzrə) (Ədliyyə nazirinin müavini Vilayət Zahirovun Azərbaycan Respublikasının Milli Məclisində çıxışı)....28
Xocalı soyqırımı qurbanlarının xatirəsi ədliyyə orqanlarında yad edilib ....33
Belarus ölkəmizdə ədliyyə sahəsində islahatlara və innovasiyalara maraq göstərir....34
Ucarda vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı qəbulu keçirilib....35
Ədliyyə Nazirliyində Gənclər günü münasibətilə tədbir keçirilib....35
Cinayətkarlıqla mübarizədə səmərəli əməkdaşlıq davam etdirilir ....37

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1 və 3-cü hissələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 49.1, 50.1 və 50.4-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2024-cü il 22 fevral tarixli Qərarı ....38
"Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 408.5-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2024-cü il 27 fevral tarixli Qərarı ....43

# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndidə səs veriblər



Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs veriblər.

## 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyev və Vüqar Zeynalovun,

maraqlı subyektin nümayəndələri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun, sədr müavini Rövzət Qasımovun, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimovun, üzvləri Fuad Cavadov, Şaitdin Əliyev, Bəxşeyiş Əsgərov, Nailə Əsgərova, Tofiq Həsənov, Ramiz İbrahimov, Validə Kazımova, İlham Məmmədov, Nizami Nadirxanlı, Qabil Orucov, Hüseyn Paşayev, Almas Qəhramanlı, Etibar Quliyev və İlkin Şahbazovun,

ekspertlər Azərbaycan Respublikası Dövlət Statistika Ko-

mitəsinin əməkdaşları Sevda Süleymanova və Fərid Əhmədovun, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov və İnsan hüquqları və informasiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru Etibar Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş protokol və ona əlavə edilmiş sənədlər üzrə 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxdı.

Hakimlər S.Salmanova və K.Şəfiyevin məruzələrini, maraqlı subyektin nümayəndəsi M.Pənahovun çıxışını, ekspertlər S.Süleymanova və N.Şükürovun rəylərini dinləyib, iş materiallarını öyrənərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinə və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 dekabr tarixli Sərəncamına uyğun olaraq 2024-cü il fevralın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2 və 203.3-cü maddələrinə müvafiq olaraq səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarında olan bütün məlumatları ümumiləşdirərək, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə səsvermənin nəticələrinə dair 2024-cü il 11 fevral tarixli protokolu tərtib etmişdir. Həmin protokol Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli 10/36 saylı qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrini təsdiq və rəsmən elan edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir.

Seçkilərin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq ekspertləri cəlb etmiş, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinə əsasən Azərbaycan Respublikasının apellyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən, Azərbaycan Respublikasının Ali Məhkəməsindən və Azərbaycan Respublikasının Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı məlumatları tələb etmişdir.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərdən göründüyü kimi, seçki qutularında 4 967 795 (dörd milyon doqquz yüz altmış yeddi min yeddi yüz doxsan beş) seçki bülleteni müəyyən edilmiş, bunlardan 9 828 (doqquz min səkkiz yüz iyirmi səkkiz) səs etibarsız hesab edilmişdir.

Etibarlı hesab edilmiş 4 957 967 (dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi) səs prezidentliyə namizədlər arasında aşağıdakı qaydada bölünmüşdür:

Əliyev Fuad Ağasi oğlu - lehinə 26 517 (iyirmi altı min beş yüz on yeddi) səs və ya 0.54 faiz;

Əliyev İlham Heydər oğlu - lehinə 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz;

Həsənquliyev Qüdrət Müzəffər oğlu - lehinə 85 411 (səksən beş min dörd yüz on bir) səs və ya 1.72 faiz;

Musayev Elşad Nəbi oğlu -

lehinə 32 885 (otuz iki min səkkiz yüz səksən beş) səs və ya 0.66 faiz;

Mustafa Fazil Qəzənfər oğlu - lehinə 98 421 (doxsan səkkiz min dörd yüz iyirmi bir) səs və ya 1.99 faiz;

Nurullayev Razi Qulaməli oğlu - lehinə 39 643 (otuz doqquz min altı yüz qırx üç) səs və ya 0.80 faiz;

Oruc Zahid Məhərrəm oğlu- lehinə 107 632 (yüz yeddi min altı yüz otuz iki) səs və ya 2.17 faiz.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.12-ci maddəsinə görə, protokollar seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır. Həmin Məcəllənin 28.2-ci maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 17-si və ya 18-i iştirak edərsə - azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmuş səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Mərkəzi Seçki Komissiyasının 18 üzvündən 18-i tərəfindən imzalanmışdır.

Ekspert S.Süleymanova bildirmişdir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələri baxımından düzgün tərtib edilmişdir və qanunvericiliyin tələblərinə uyğundur.

Ekspert N.Şükürovun rəyinə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinin tələblərinə tam cavab verir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə daxil olmuş məlumatlardan göründüyü kimi, seçki hüquqlarının müdafiəsi ilə bağlı Bakı Apellyasiya Məhkəməsində səkkiz, Sumqayıt Apellyasiya Məhkəməsində isə bir ərizəyə baxılmış və həmin ərizələr əsassız olduğundan təmin edilməmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin məlumatına görə, məhkəmə aktlarından verilmiş üç kassasiya şikayəti təmin olunmadan saxlanılmışdır.

Gəncə, Şirvan, Şəki Apellyasiya Məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi seçki hüquqlarının müdafiəsi ilə bağlı hər hansı ərizənin daxil olmadığını bildirmişlər.

Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən, seçki hüquqlarının pozulması ilə əlaqədar bir şikayət üzrə aparılmış araşdırma zamanı həmin şikayətdə irəli sürülmüş dəlillərin öz təsdiqini tapmadığı müəyyən edilmişdir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğun hesab edir.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks olunmuş nəticələr təsdiq edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidentliyinə namizədə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdikdə, o, Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Qeyd olunduğu kimi, etibarlı hesab edilmiş seçici səslərindən 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz Əliyev İlham Heydər oğlunun

lehinə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinin və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsini, 130-cu maddəsinin VIII və IX hissələrini, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

3. Qərar elan olunduğu andan qüvvəyə minir.

4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 13 fevral 2024-cü il*

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib

**Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.**

Andiçmə mərasimində birinci xanım Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşılayıblar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olunub.



Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətiriblər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin

hakimləri səhnəyə dəvət olunublar.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək deyib:

- Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini




Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içib:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs "Qurani-Şərif"ə əl basaraq and içib:

- Əlimi "Qurani-Şərif"ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

Azərbaycan Respublikasının Dövlət Himni səslənib. Prezident İlham Əliyev təzim edərək, Azərbaycan Respublikasının Dövlət Bayrağını öpüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söyləyib.






# Prezident İlham Əliyevin andiçmə mərasimində nitqi

- Hörmətli xanımlar və cənablar.

İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.

2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.

Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir,

300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların və on minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, qururuq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq, şəhər və kəndlərimizi yenidən qururuq.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Ancaq müharibə olmaya bilərdi, əgər Ermənistan və onun rəhbərliyi, onun arxasında dayanan qüvvələr beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etsəydilər. Əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərirdi, eyni zamanda, aparılan danışıqlara sadiqlik göstərirdi. Baxmayaraq ki, illər keçdikcə bizim ümidlərimiz də tükənirdi, işğalçı dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər.

O inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər bütün məsuliyyəti daşıyırlar və bölüşürlər. Mən dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda, Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik. Elə günə salmışdıq ki, özlərinin etirafına görə, 12 mindən çox fərarisi olmuşdur. Azərbaycan Ordusundan bir nəfər də döyüş meydanını tərk edib qaçmamışdır. Bu, bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərir. Bir daha göstərir, elə gənc nəsil yetişib ki, Vətən uğrunda, torpaq uğrunda, milli ləyaqət uğrunda ölümə getməyə hazırdır və ölümə də gedirdilər bizim gənclərimiz. Biz bütün dünyada Ermənistanın uzun illər ərzində yaratmağa çalışdığı mifləri darmadağın etdik, erməni ordusunu qorxaq və təslimçi ordu kimi təqdim etdik. Bunu bizim cəsur döyüşçülərimiz qan tökərək, irəliyə gedərək, 5-6 müdafiə xəttini aşaraq sübut etmişlər və 44 günlük Vətən müharibəsi, bir daha demək istəyirəm, bizim əyilməz ruhumuzu göstərmişdir, Azərbaycan xalqının iradəsini göstərmişdir, Azərbaycan dövlətinin gücünü göstərmişdir. Xalq bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində bütün tarixi və strateji vəzifələr təmin edildi. Bu 44 gün ərzində bir dəfə də olsun Ordumuz geriyə addım atmamışdır, ancaq irəli gedirdik. Şuşanın azad edilməsi tarixi hadisə olaraq, eyni zamanda, İkinci Qarabağ müharibəsinə son qoydu. Çünki ondan sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur, bizim qarşımızda ağ bayraq qaldırmışdır, təslim olmuşdur və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatdı.

Müharibədən keçən dövr ərzində biz öz prinsipial mövqeyimizi bütün məsələlərdə göstərmişdik, həm beynəlxalq vasitəçilik etməyə çalışanlarla, həm Ermənistan tərəfi ilə çoxsaylı görüşlər zamanı bildirilmişdir ki, onların üzərinə götürdükləri bütün öhdəliklər yerinə yetirilməlidir. Kapitulyasiya aktında hər şey açıq-aydın göstərilmişdir. Düzdür, bəzi öhdəliklər yerinə yetirildi, o da məcburən, qorxudan. Çünki İkinci Qarabağ müharibəsi işğalçılara elə bir sarsıdıcı zərbə vurdu ki, onlar uzun müddət ərzində özlərinə gələ bilmirdilər. Ancaq vaxt keçdikcə gördük ki, yenidən bizə qarşı ərazi iddiaları irəli sürülür, onlar

yenidən o çirkin əməllərindən əl çəkmək istəmirlər. Biz isə haqlı olaraq tələb edirdik ki, bütün şərtlər və öhdəliklər icra edilməlidir. Ermənistan özü bu öhdəliklərin altında imza atmışdır. Onların arasında, ilk növbədə, qanunsuz silahlı birləşmələrin Azərbaycan ərazisindən çıxarılması və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasındakı yol bağlantısı öhdəlikləri dururdu və üç il ərzində bu öhdəliklərin yerinə yetirilməsi məsələsi öz həllini tapmamışdır. Ermənistan sanki İkinci Qarabağ müharibəsinin nəticələrini unutmuşdu. Bəlkə kimsə onlara müəyyən məsləhətlər də verirdi ki, bu öhdəliklər yerinə yetirilməsin.

Üç il ərzində biz yenə də səbir göstərmişdik, biz yeni gərginləşmə vəziyyəti yaratmaq fikrində deyildik və İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər keçən dövr ərzində bunun bütün xronoloji məqamları bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir. Düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil. Üç il ərzində nəinki Ermənistan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmayıb, hətta əlavə silah-sursat göndərib, minalar göndərib, bizə qarşı mina terroru davam edib, daha geniş vüsət almışdır. Ermənistan sanki bütün dünyanı və o cümlədən bizi aldatmağa çalışırdı ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağda mövcud deyil, bu, sən demə, hansısa özünümüdafiə qüvvələridir. Bu cəfəng versiyalara inananlar Ermənistan rəhbərliyi ilə birlikdə bütün məsuliyyəti daşıyırlar.

Ona görə antiterror əməliyyatı qaçılmaz idi. Ermənistan mövqeyində təzadlı məqamlar artıq bir qayda kimi müşahidə olunur. Əgər Ermənistan tərəfindən bir həftə təzadlı, bir-birini inkar edən hər hansı açıqlama verilməsə, biz artıq şübhə etməyə başlayırıq ki, görəsən, nələr baş verir. Bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyan və 2022-ci ilin oktyabr ayında bunu bəyan edən dövlət, digər tərəfdən bizə qarşı ərazi iddialarından əl çəkmirdi. Bunu, həm onların açıqlamaları göstərirdi, həm də onların qanunları, o cümlədən onların əsas qanunu bunu göstərir, eyni zamanda, separatçı qüvvələrə Ermənistan rəhbərliyi tərəfindən göndərilən təbrik məktubları göstərirdi. Bunu görmək istəməyənlər, bu gün Ermənistanın arxasında durmağa çalışanlar bilməlidirlər ki, heç nəyi gizlədə bilməyəcəklər.

Bizim ərazi bütövlüyümüz tam bərpa olunmalı idi və biz İkinci Qarabağ müharibəsindən sonra bu məqsədə doğru məqsədyönlü şəkildə addımlayırdıq. İndi bütün hadisələri yenidən dilə gətirməyə ehtiyac yoxdur, Azərbaycan xalqı hər şeyi bilir və hər şeyi yadda saxlayır. Hər bir addımımızın məntiqi mənası var idi, hər bir addım əvvəlki addımın məntiqi davamı idi, istər Laçın-Xankəndi yolu ilə əlaqədar, istər antiterror əməliyyatının keçirilməsi ilə əlaqədar. Mən digər addımları da qeyd etməliyəm, o cümlədən Azərbaycan və Ermənistan şərti sərhədində baş vermiş hadisələr, hesab edirəm ki, bax bugünkü reallığın əldə edilməsi üçün çox önəmli rol oynamışdı. Ola bilər o vaxt bəziləri obyektiv səbəblərə görə bunu tam dərk edə bilmirdi, ancaq bu gün keçmişə baxdıqda hər kəs görür ki, bir dənə də olsun addımımız situativ xarakter daşımırdı, avantüra xarakteri daşımırdı və mənasız deyildi. Biz, ümumiyyətlə, heç vaxt mənasız addımlar atmırıq, atmamışıq və atmayacağıq. Bu gün hansı addımlar atılırsa, o addımların hədəfə doğru getmək üçün böyük mənası var.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.

Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlamışdır. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq.

Hələ Bayraq Meydanının açılışında demişdim ki, bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq.

Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun.

Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir.

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadar-

ları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

Biz çox güclü hərbi sənaye kompleksi yaradırıq, artıq bunun birinci mərhələsi başa çatdı. İkinci mərhələsi daha genişmiqyaslı olacaq. Təkcə bu il bu məqsədlər üçün həm özəl, həm dövlət müəssisələri tərəfindən ən azı bir milyard manat sərmayə qoyulacaq və biz özümüzü bundan sonra daha böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcəyik, daha böyük həcmdə ixrac edəcəyik və bu sahədə də müəyyən dərəcədə, deyə bilərəm ki, böyük dərəcədə xarici asılılıqdan canımızı qurtaracağıq. Necə ki, siyasi sahədə, iqtisadi sahədə bizim xarici təsirə məruz qalma şansımız sıfra bərabərdir, çünki biz müstəqil siyasət aparırıq.

Bu gün dünyada gedən prosesləri hər kəs görür. Dünya faktiki olaraq Üçüncü Dünya müharibəsinə çox yaxındır. Bəziləri hesab edir ki, artıq bu Üçüncü Dünya müharibəsi başlamışdır, müxtəlif fərziyyələr ola bilər. Təbii ki, müasir müharibələr əvvəlki müharibələrdən fərqlənir. İkinci Dünya müharibəsi ilə bugünkü müharibələri müqayisə etmək belə mümkün deyil və təbii ki, bir çox ölkələr bu gün hərbi sahəyə diqqət yetirməyə başlamışlar. Biz isə bunu artıq 20 ildən çoxdur ki edirik və bu gün bizdə əldə edilmiş təcrübə, o cümlədən döyüş təcrübəsi əvəzolunmazdır. Bizim Ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir. Ermənistan və ona hərbi cəhətdən dəstək verənlər bilməlidirlər ki, bizi heç nə dayandıra bilməz. Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq. Bu, bir daha onu deməyə əsas verir ki, ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi əsas vəzifədir. Bu gün onu da bildirməliyəm ki, bir çox ölkələr üçün bu, əsas vəzifə kimi artıq qəbul olunub, onların hərbi doktrinalarında, onların büdcə xərclərində və digər addımlarda da bunu əyani şəkildə görmək olur. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Ordumuz döyüş meydanında öz gücünü göstərib, Ordumuzda çox yüksək mənəvi ruh var, bizim peşəkarlığımız artır və biz Ermənistanı döyüş meydanında məğlub etmişik. Ona görə bu amil həmişə mövcud olacaq.

Biz, eyni zamanda, sərhədlərimizi daha da güclü qorumalıyıq. Bunu da qarşıya önəmli vəzifə kimi qoyuram. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Xüsusilə nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra biz həm o vaxt işğal altında olan Azərbaycan-İran sərhədinə qayıtmışıq, həm də Azərbaycan-Ermənistan şərti sərhədində yerləşmişik. Əlbəttə ki, sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır və biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin. Sərhədlərimizin qorunması, eyni zamanda, bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur. Biz özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən qorumalıyıq, həm də özümüzü ideoloji risklərdən qorumalıyıq. İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gə-

ləcəyimizin təmin edilməsi deməkdir.

Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir.

Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz.

Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var.

Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz - onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik. Biz hamımız şəhidlər vermişik, qan tökmüşük. Erməni işğalçılara qarşı sinəmizi qabağa verib döyüşə getmişik. Bu birlik, bu həmrəylik və bu şanlı Zəfər tarixi Azərbaycanda yaşayan bütün xalqları daha da sıx birləşdirir və bu da əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Deyə bilərəm ki, bu sahədə çox böyük tarixi nailiyyətlər var, baxmayaraq ki, müxtəlif istiqamətlərdən bu birliyi pozmaq, bizim aramıza girmək, təxribat xarakterli uydurmaları ortaya atmaq cəhdləri kifayət qədər çox olub

və olacaq. Çünki bizi istəməyən qüvvələr, bizim gücümüzü qəbul etməyən, Ermənistan üzərində parlaq Qələbəmizi həzm edə bilməyən anti-Azərbaycan qüvvələr çalışacaqlar ki, bu amildən istifadə etsinlər. Onların səyləri əbəs olacaq. Bizim birliyimiz bu səylər qarşısında bir sədd kimi durmalıdır və durur. Bu istiqamətdə bundan sonra da lazımi addımlar atılacaq. Təbii ki, cəmiyyət, vəzifəli şəxslər, dövlət qurumları burada vahid siyasət aparır və bu siyasət gündəlik həyatda özünü göstərir.

Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib. Əfsuslar olsun ki, biz hər həftə belə ağır xəbərləri eşidirik. Minalardan təmizləmə prosesi gedir, 120 min hektar artıq təmizlənib, amma minalanmış ərazi qat-qat daha genişdir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü, - 40 tunel və 90 körpü, - inşa edilir. Yəni, bu, sadəcə olaraq işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq. Yəni, geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək.

Əlbəttə ki, bütün bunlara nail olmaq üçün iqtisadiyyatımız inkişaf etməlidir. Bu ilin yanvar ayının nəticələri ümidvericidir. Ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Bu, ümidverici göstəricidir və onu göstərir ki, biz indi yavaş-yavaş öz iqtisadi templərimizi bərpa edirik. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni, bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq. Bu, bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, ondan da az təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəlkə də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən az. Yəni, bu, nəyi göstərir? Bizim sağlam maliyyə sistemimizin göstəriciləridir və bu, bizə imkan verir ki, biz müstəqil siyasət aparaq. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır.

Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı, - bəlkə də çoxlarının yadında deyil, - 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20

manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var. Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək.

Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun. Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir.

Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir. Deyə bilərəm ki, bu kateqoriyadan olan insanlara dövlət tərəfindən 14 min 800 fərdi ev və ya mənzil verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlərlə təmin edilməsi prosesi sürətlə gedir, o cümlədən bu il və gələn il bu işlər görüləcək.

Vacib vəzifələrdən biri texnoloji inkişafımızdır. Bu gün istər sənaye inkişafı sahəsində, istər hərbi sənaye kompleksi sahəsində və ümumiyyətlə, hərbi sahədə texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır. İkinci Qarabağ müharibəsi zamanı hər kəs bunu gördü, antiterror əməliyyatı zamanı da. Təbii ki, Qələbəmizin əsas amili Azərbaycan döyüşçüsüdür. Düşməni məhv edən və Bayrağı azad edilmiş torpaqlara sancan insandır, əsgərdir, zabitdir. Ancaq texniki vasitələr az rol oynamır. Biz texniki vasitələr hesabına İkinci Qarabağ müharibəsindən minimum itkilərlə çıxmışıq. Ona görə texnoloji inkişafla bağlı hədəflər müəyyən edildi, bütün aidiyyəti qurumlara tapşırıqlar verildi və bu iş əlbəttə ki, böyük bir səfərbərlik tələb edən işdir. Sadəcə olaraq, dövlət siyasəti burada yetərli deyil. Biz əlbəttə ki, yeni texnologiyaları alırıq, texnoloji inkişafa böyük dəstək veririk, ancaq burada vacib məsələlərdən biri kadr hazırlığıdır. Deyə bilərəm ki, bu istiqamətdə son 1-2 il ərzində böyük inkişaf mövcuddur, bəlkə də ictimaiyyət o qədər də məlumatlı deyil. Ancaq kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək. Son müddət ərzində bir neçə min Azərbaycan gənci treninqlərdən keçib, xüsusi proqramlardan keçib. Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi - bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks təqdirdə, biz geridə qalacağıq. Biz isə geridə qala bilmərik. Biz elə bir bölgədə yerləşirik, bizə qarşı elə bir qüvvələr birləşib ki, bizə ziyan vurmaq üçün fürsət axtarırlar. Biz, - İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, - sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. An-

caq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni, bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik. Ona görə hesab edirəm ki, bütün qurumlar və eyni zamanda, cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir.

Digər vacib vəzifələrdən biri bərpaolunan enerji ilə bağlıdır. Burada da biz ön sıralardayıq, artıq işlərə start verildi. Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən günəş, külək və hidro - su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat. Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq. Elektrik enerjisinin böyük hissəsi bərpaolunan enerji hesabına istehsal ediləcək. Biz iqlim dəyişikliyi məsələlərinə də öz töhfəmizi vermiş olacağıq, xüsusilə nəzərə alsaq ki, Azərbaycan bu il COP29-a - dünya miqyasında ən böyük beynəlxalq konfransa ev sahibliyi edəcəkdir. Ona görə bərpaolunan enerji növləri ilə bağlı bizim hədəflərimiz aydındır. Onu da bildirməliyəm ki, bütün bu layihələr xarici investorlar tərəfindən icra edilir və ediləcək. Əgər belə demək mümkündürsə, biz indi xarici investorların rəqabət prosesini də görürük. Çünki o qədər çox ölkə Azərbaycanda bu sahəyə vəsait qoymaq istəyir ki, bizim bu qədər imkanımız hələ ki, yoxdur. Halbuki Dünya Bankının qolu olan Beynəlxalq Maliyyə Korporasiyası təkcə dənizdə külək potensialımızı 157 min meqavat səviyyəsində təsbit edib.

Ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir.

Təbii qazla bağlı. Biz artıq səkkiz ölkəyə təbii qaz ixrac edirik. Tələbat daha böyükdür, ilk növbədə, təbii ki, Avropa İttifaqı məkanından. Bizdən xahiş edənlərin sayı artır ki, biz kömək edək. Bax, bizə edilən xahişlər bu məqsədi daşıyır. Biz isə etibarlı tərəfdaş kimi həmişə ehtiyacı olanlara kömək etməyə hazırıq və bu köməyi göstəririk, bu da qiymətləndirilir. Düzdür, hər zaman qiymətləndirilməsə də, prinsip etibarilə bu vəziyyət bizi qane edir.

Gələcəkdə bizim ixrac coğrafiyamız artacaq, təbii ki, Avropa istiqaməti üzrə. Bu yaxınlarda bizim yeni resurs bazamız işə salınıb. "Şahdəniz" yatağından sonra ikinci resurs bazamız "Abşeron" qaz-kondensat yatağından ilk qaz çıxarılıb və yəqin ki, biz yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlayacağıq. Gələn il "Azəri-Çıraq-Günəşli" yatağının dərin laylarından qaz hasilatı nəzərdə tutulur. Bu da bizim resurs bazamızı artıracaq. Ondan başqa, "Ümid", "Babək", "Şəfəq", "Asiman", "Qarabağ" neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Vaxtilə bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda neft yoxdur. Azərbaycan 1997-ci ildən bəri neft hasilatını yüksək səviyyədə saxlayır və bir çox ölkələrə neft ixrac edir. Sonra deyirdilər ki, Azərbaycanda qaz yoxdur. Təbii ki, bu da cəfəngiyatdır, bax, sadaladığım bu yataqlar onu əyani şəkildə göstərir.

Təbii ki, biz nəqliyyat sahəsində işləri davam etdirəcəyik. Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Bizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Sadəcə olaraq bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələ-

cəkdə dəyişməsi, yəqin ki, mümkün deyil. Belə olan halda bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, biz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir. İlk dəfə olaraq, o zavod işə salınanda sifarişlər onu 100 faiz işlə təmin edib.

Səkkiz beynəlxalq aeroportumuz var, doqquzuncu Laçında inşa edilir. Yəni, biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Əlbəttə ki, beynəlxalq təcrübəyə əsaslanaraq biz tranzit ölkə kimi öz imkanlarımızı təqdim edirik. Əlbəttə ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq.

Azərbaycan o ölkələrdəndir ki, açıq dənizlərə çıxışı yoxdur. Ancaq buna baxmayaraq, dediyim o səbəblərə görə bu gün biz nəqliyyat mərkəzlərindən birinə çevrilmişik. Getdikcə rolumuz artacaq, bizə müraciətlər də çoxalacaq, necə ki, bu gün xahişlə müraciət edirlər ki, "bizə qaz verin, bizə qaz verin, bizdə qaz çatmır" və sair, burada da eyni mənzərə olacaqdır.

Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik.

Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, - bunu hamı bilir, - daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

Bəzən eşidirik ki, hansısa ölkələr, yaxud da ki, ölkələr qrupu beynəlxalq ictimaiyyət funksiyalarını öz üzərinə götürmək istəyir və beynəlxalq ictimaiyyət adından danışmağa çalışır. Sözü olmayanda deyir ki, beynəlxalq ictimaiyyət bu məsələni yaxşı qəbul etməz, beynəlxalq ictimaiyyət o məsələni yaxşı qəbul etməz. Birincisi, bu, təvazökarlıqdan uzaq olan məsələdir. Məhdud sayda olan hər hansı 20-30 ölkə beynəlxalq ictimaiyyət adından danışa bilməz, o ki qaldı bir ölkə, ümumiyyətlə, danışa bilməz. Beynəlxalq ictimaiyyət isə bizim tərəfimizdədir və İkinci Qarabağ müharibəsi zamanı, antiterror əməliyyatı zamanı beynəlxalq ictimaiyyət bizi dəstəkləmişdir. Bu gün Azərbaycanın beynəlxalq nüfuzu hesab edirəm ki, heç kimə sirr deyil.

Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır.

Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayrıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri

açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik.

İslam Əməkdaşlıq Təşkilatı da həmişə - həm işğal dövründə, həm işğaldan sonra, həm də İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Azərbaycan bu təşkilatın dəyərli üzvüdür. Azərbaycanda müsəlman dininə və bütün dinlərə olan münasibət bu təşkilat tərəfindən yüksək qiymətləndirilir. Bu təşkilat bütün müsəlman ölkələrini birləşdirir. Əlbəttə ki, bu təşkilatda bizim təşəbbüslərimizin qəbul edilməsi və dəstəklənməsi xüsusi məna daşıyır.

Qoşulmama Hərəkatı. Baxmayaraq ki, biz sədrliyi artıq təhvil vermişik, biz üçlükdə təmsil olunuruq. Qoşulmama Hərəkatı bizim sədrliyimiz dönəmində yeni müstəviyə qədəm qoyub, əlbəttə, imkan verə bilmərik ki, müəyyən dərəcədə tənəzzülə uğrasın. Əminəm ki, bu, olmayacaq. Biz isə öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, Qoşulmama Hərəkatı bir təsisat kimi daha da güclənsin. Əgər üzv ölkələrin qarşısında duran problemlərin həllinə kömək göstərmək lazım olarsa, əlbəttə, biz bunu edəcəyik.

Biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-un ev sahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik. Bunu neokolonializmin başında duranlar da bilsinlər ki, onlar əbəs yerə bizimlə soyuq savaşa çıxıblar. Biz geridə qalmayacağıq, biz heç vaxt müdafiə mövqeyində olmamışıq. Bizə qarşı atılan addımlara adekvat addım atacağıq və bizə qarşı məkrli planlar hazırlayanlar, əminəm ki, peşman olacaqlar.

Nəhayət, Azərbaycan-Ermənistan münasibətləri. Mən çıxışımın sonunda bu məsələyə təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyiş-

məyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!

Bununla da təntənəli andiçmə mərasimi başa çatıb.

# Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət

**Fevralın 14-də andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad ediblər.**

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndərin məzarı önünə gül dəstələri qoyublar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etdilər və üzərinə gül dəstələri qoyublar.



Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzülüb.

# Şəhidlər xiyabanını ziyarət

**Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.**

Dövlətimizin başçısı və birinci xanım Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edərək, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoyublar.

Prezident İlham Əliyev və birinci xanım



Mehriban Əliyeva paytaxt Bakının mənzərəsini seyr ediblər. Sonra xatirə şəkli çəkdirilib.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfəri





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə fevralın 18-19-da Türkiyədə rəsmi səfərdə olub.**

Dövlətimizin başçısı İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyənin rəsmi şəxsləri qarşılayıblar.

Fevralın 19-da Azərbaycan Prezidenti Ankarada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib, məzarı önünə əklil qoyub. Dövlətimizin başçısı Ankaradakı Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub və xatirəsini ehtiramla yad edib.

Həmin gün Türkiyə Respublikası Prezidentinin Sarayında - Külliyedə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb, dövlət himnləri səsləndikdən sonra ölkə başçıları fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək və geniş tərkibdə görüşləri olub.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevin seçkilərdə tarixi zəfərə imza atdıqdan sonra ilk rəsmi səfərini Türkiyəyə etməsindən böyük məmnunluq duyduğunu, bu yeni dövrdə mükəmməl səviyyədə davam edən əməkdaşlığımızın həmişəkindən daha yüksək səviyyəyə çatdırılacağına ürəkdən inandığını söyləyib.

Dövlətimizin başçısı seçkilərindən sonra ilk rəsmi səfərinin qardaş Türkiyəyə olduğunu bildirib və qeyd edib ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin bənzəri, tayı yoxdur və bu əlaqələr hər gün daha da güclənir.

Görüşdə Şuşa Bəyannaməsinin ölkələrimiz arasındakı münasibətləri müttəfiqlik səviyyəsinə qaldırdığı xüsusilə qeyd olunub. İkitərəfli ticarət dövriyyəsinin 7,5 milyard dollara çatdığı, müdafiə sənayesi, hərbi, energetika, təhsil və digər sahələrdə əməkdaşlığın, Orta Dəhliz məsələsində Azərbaycan ilə Türkiyənin işbirliyinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha

da artırılmasının, həmçinin Naxçıvanda birgə layihələr və sonuncu səfər zamanı imzalanmış sənədlərin, o cümlədən Naxçıvanın qaz təchizatı istiqamətində layihələrin, Qars-Naxçıvan dəmir yolunun tikilməsinin mühüm əhəmiyyəti vurğulanıb.

Dövlətimizin başçısı bir daha 44 günlük Vətən müharibəsində bütün qardaş Türkiyənin və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın yanında olmasının, mənəvi və siyasi dəstəyinin torpaqlarımızın azad edilməsində aparıcı rol oynadığını, Qarabağ dastanının yazılmasında mühüm amil olduğunu bildirib.

Görüş çərçivəsində beynəlxalq təşkilatlarda Azərbaycanla Türkiyə arasında əməkdaşlıq, ölkələrimizin bir-birini daim dəstəklədiyi vurğulanıb.

Prezident Rəcəb Tayyib Ərdoğan COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı iki ölkə arasında bu əsnada əməkdaşlıq üçün böyük perspektivlərin mövcudluğunu, Azərbaycanın da birgə əməkdaşlığa hazır olduğunu qeyd edib. Həmçinin ölkələrimizin birgə təşəbbüslərlə çıxış etmələrinin vacibliyi diqqətə çatdırılıb.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının bizim bir ailəmiz olduğunu və Milli Məclisdə keçirilən andiçmə mərasimində çıxışı zamanı da bu faktı vurğuladığını deyib. Böyük coğrafiyaya, təbii qaynaqlara, insani resurslara, geniş potensiala malik Türk Dövlətləri Təşkilatının birgə səylərlə daha da inkişaf etdirilməsinin vacibliyi bildirilib.







Eyni zamanda, müdafiə sənayesi sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi və iki ölkənin Silahlı Qüvvələrinin birgə təlimlərinin keçirilməsi məsələlərinə toxunulub.

Səfər zamanı Ankarada Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. Mərasimdə Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu, baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş, gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş imzalanıb. Sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri başa çatıb.

# XX əsrin ən dəhşətli cinayətlərindən biri - Xocalı soyqırımından 32 il ötür

**Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, erməni qəsbkarlarının xalqımıza qarşı həyata keçirdikləri etnik təmizləmə siyasəti nəticəsində törədilən qanlı cinayətlər, qətliamlar arasında Xocalı soyqırımı xüsusi amansızlığına görə seçilir.**

Otuz iki ildir ki, xalqımız bu qanlı cinayətin - Xocalı soyqırımının mənəvi ağrısını, ağlasığmaz dəhşətlərini qəlbində, həyatında daşıyır. Bu gün Xocalı şəhidlərinin ruhları şaddır. Xocalı və işğaldan azad olunmuş bütün digər rayonlarımız tam azaddır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çoxəsrlik tariximizdə bənzəri olmayan Vətən müharibəsi, eləcə də uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub. Xocalı şəhəri separatçılardan təmizlənib. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Güclü siyasi iradə, möhkəm iqtisadi potensial, qüdrətli ordu, Xalq-lider vəhdəti, cəmiyyətdəki böyük ruh yüksəkliyi, vətənpərvərlik, əzmkarlıq tarixi Qələbəni təmin etdi. Artıq Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib.

Uzun illərdir ki, Azərbaycan dövləti Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparıb. Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib.

Prezident İlham Əliyev Xocalı soyqırımını törədənlərin ifşa olunmasını və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılmasını Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Eləcə də, Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, bu soyqırımına




obyektiv qiymət verilməsi məqsədilə davamlı addımlar atılır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub.

Bütün bunların nəticəsidir ki, indiyədək 17 dövlətin milli qanunvericilik orqanı, həmçinin ABŞ-ın 23 ştatı Xocalıda dinc əhalinin qətliamını pisləyən və bunu insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən qətnamə və qərarlar qəbul




edib. Eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatında və Türk Dövlətləri Təşkilatında Xocalı soyqırımının kəskin şəkildə pislənilməsini ehtiva edən qətnamə və bəyanatlar qəbul olunub.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi düşmənin əsl mahiyyətini bir daha əyani şəkildə nümayiş etdirdi. Döyüş meydanında Azərbaycan əsgərinin qarşısında aciz qalan düşmən hərbi əməliyyatların getdiyi ərazilərdən uzaqda yerləşən yaşayış məntəqələrimizi raket atəşinə tutdu. Nəticədə aralarında uşaqların, qadınların da olduğu dinc sakinlər həlak oldu. Gəncəyə, Bərdəyə, Tərtərə, Naftalana və digər yaşayış məntəqələrimizə atılan raketlər erməni faşizminin nə qədər təhlükəli olduğunu bir daha göstərdi.

Müharibə başa çatsa da, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi gündəmə gəlsə də, erməni vəhşiliyini, 32 il əvvəl Xocalıda törədilmiş amansız soyqırımını heç vaxt unutmaq olmaz. Prezident İlham Əliyevin dediyi kimi: "Biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq".

**AzərTac**

# Prezident İlham Əliyevin Xocalı şəhərinə səfəri






**Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı əvvəlcə mərasim iştirakçıları ilə görüşüb.**

"İlk dəfədir ki, Xocalı soyqırımı gününü biz Xocalıda günahsız Xocalı qurbanlarının xatirəsini anaraq qeyd edirik. Otuz iki ildən sonra biz doğma torpağımıza qayıtmışıq" - deyən dövlətimizin başçısı Xocalı soyqırımının heç vaxt xalqımızın yaddaşından silinməyəcəyini, bu qanlı cinayəti unutmayacağını vurğulayıb. Bildirib ki, otuz iki il bundan əvvəl Ermənistan dövləti bu qanlı faciəni törədərək günahsız insanları qətlə yetirmişdir. 613 insan vəhşicəsinə qətlə yetirilmişdir, 150 insan itkin düşmüşdür, - təbii ki, onların da taleyi bəllidir, - 1000-dən çox insan girov götürülmüşdür, 60-dan çox uşaq, 100-dən çox qadın, yaşlı 70 insan erməni vəhşiləri, faşistləri tərəfindən vəhşicəsinə bir gecə içində qətlə yetirilmişdir.

Ölkə Prezidenti dövlətimizin, dövlət qurumlarının, xaricdə yaşayan azərbaycanlıların, ictimai təşkilatlarımızın və onların arasında Heydər Əliyev Fondunun Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərdiyini vurğulayıb, Fondun xətti ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası çərçivəsində keçirilən tədbirlərə tox-

unub.

"Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır" - deyən Prezident İlham Əliyev bu qanlı cinayəti törədənlərin ədalət qarşısında cavab verməsi üçün onilliklər ərzində çalışdığımızı söyləyib, İkinci Qarabağ müharibəsinin bu ədalətin təntənəsi olduğunu, müharibə nəticəsində o vaxt işğal altında olan torpaqların böyük hissəsinin azad edildiyini, işğal altında qalan ərazilərin isə beş ay bundan əvvəl azad olunduğunu diqqətə çatdırıb.

Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. Beş ay əvvəl antiterror əməliyyatı nəticəsində Xocalı daxil olmaq şərtilə, bütün o vaxt digər ərazilər - hansılar ki, işğal altında idi və separatçılar orada at oynadırdılar, - azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı qaldırıldı.

Dövlət başçısı doğma torpaqlarımızda aparılan bərpa quruculuğu işlərinə toxunub, Xocalıda böyük abadlıq işlərinə də başlanıldığını bildirib, keçmiş məcburi köçkünlərin öz dədə-baba yurdlarına qayıdışından bəhs edib.

Bildirib ki, həm 44 günlük İkinci Qarabağ müharibəsi ərzində, həm birgünlük antiterror əməliyyatı zamanı böyük peşəkarlıq, qəhrəmanlıq, fədakarlıq göstərmişik. Bizim övladlarımız ölümə gedirdilər ki, bu torpaqları işğalçılardan




azad etsinlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bu gün isə biz buradayıq, burada olmağımız tarixi ədalətin tam bərpası deməkdir. Xocalı bu gün qurulur, ... Xocalı qurbanlarının bu gün ruhu şaddır. Onların əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

Sonra dövlətimizin başçısına Xocalı Soyqırımı Memorialı barədə məlumat verilib. Qeyd olunub ki, Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır.

Prezident İlham Əliyev Xocalı Soyqırımı Memorialının təməlini qoyub, sakinlərlə birlikdə Xocalı şəhərində aparılan tikinti işləri ilə tanış olub. Dövlətimizin başçısı və Xocalı rayon ictimaiyyətinin nümayəndələri daha sonra Xankəndi şəhərində olublar.

# Sükut dəqiqəsi

**Fevralın 26-da Bakı vaxtı ilə saat 17:00-da Azərbaycanın bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin anda soyqırımı qurbanlarının xatirəsini anıb.

Ölkəmizin hər yerində, Xocalıda, Xankəndidə və azad olunmuş digər ərazilərdə şəhidlərimizin xatirəsi yad edilib. Paytaxt küçələrində nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb, ölkəmizin şəhər və rayonlarında, kənd və qəsəbələrində, xaricdəki diplomatik nümayəndəliklərdə Azərbaycanın Dövlət Bayrağı endirilib.

Minlərlə sakin fevralın 26-da Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edərək şəhidlərin xatirəsini ehtiramla anıb, onun önünə əklillər qoyub, qərənfillər düzüblər. Respublikamızın şəhər və rayonlarında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, idarə və təşkilatlarda, məscidlərdə, kilsələrdə, sinaqoqlarda və xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının anım mərasimləri, aksiyalar, yürüşlər, fləşmoblar, mədəniyyət tədbirləri keçirilib.



# F.T.Əhmədovun Azərbaycan Respublikasının ədliyyə naziri təyin edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Fərid Turab oğlu Əhmədov Azərbaycan Respublikasının ədliyyə naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 27 fevral 2024-cü il*

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş ədliyyə nazirini kollektivə təqdim edib

**Fevralın 28-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev ədliyyə naziri Fərid Əhmədovu kollektivə təqdim edib.**

Təqdimat mərasimində çıxış edən Samir Nuriyev müstəqil Azərbaycan Respublikasında müasir ədliyyə sisteminin formalaşması və inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Qeyd edib ki, Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilmiş ardıcıl və məqsədyönlü hüquqi islahatlar nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun yeni inkişaf yoluna qədəm qoydu, onun çoxşaxəli fəaliyyətini tənzimləyən normativ-hüquqi baza formalaşdırıldı, nazirliyin səlahiyyətləri genişləndirildi, cəmiyyətdə rolu artdı.





Prezident Administrasiyasının rəhbəri bildirib ki, hüquqi dövlət quruculuğu prosesini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ədliyyə sisteminin inkişafı məsələlərini və ümumilikdə hüquq islahatlarını daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının təsdiq etdiyi qanunvericilik aktları ilə Ədliyyə Nazirliyinin yeni fəaliyyət istiqamətləri, vəzifə və hüquqları, ədliyyə orqanlarında qulluq keçmənin qaydaları və şərtləri müəyyən olunub, ədliyyə orqanlarının inkişaf etdirilməsi məqsədilə müvafiq addımlar atılıb. Azərbaycan Prezidentinin hüquqi dövlət quruculuğu prosesində ədliyyənin rolunun gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər dövlət başçısının qanunun aliliyinin təmin olunmasına və insan hüquqlarının etibarlı qorunmasına xüsusi önəm verdiyini aydın göstərir.

Qarşıdan gələn dövrdə nazirliyin qarşısında duran vəzifələrlə bağlı Prezident İlham Əliyevin tapşırıqlarını diqqətə çatdıran Samir Nuriyev kollektivin öz səylərini əsirgəməyəcəyinə inandığını bildirib, bu işdə yeni təyin olunmuş nazirə və kollektivə uğurlar arzulayıb.

# Milli Məclisin plenar iclasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib






**Fevralın 23-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin keçirilən plenar iclasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib.**

Məruzəni ədliyyə nazirinin müavini Vilayət Zahirov diqqətə çatdırıb *(Nazir müavininin çıxışının mətni jurnalımızın bu sayında oxucularımıza təqdim olunur).*

Sonra parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məsələ ilə bağlı komitənin rəyini təqdim edib. Məsələ ətrafında aparılan müzakirələrdə komitə sədri Fazil Mustafa, deputatlar Vahid Əhmədov, Əli Məsimli, Vüqar Bayramov çıxış edib, fikir və qeydlərini səsləndiriblər.

İclasda Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2023-cü ildə fəaliyyəti haqqında məruzə nəzərə alınıb.

# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzə" (2023-cü il üzrə)

## *Ədliyyə nazirinin müavini Vilayət Zahirovun Azərbaycan Respublikasının Milli Məclisində çıxışı*

*Hörmətli xanım sədr!*

*Hörmətli deputatlar!*

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunması üçün hazırlanmış 2023-cü il üzrə İllik məruzəni diqqətinizə təqdim edirəm. İllik məruzədə yerli özünüidarəetmə orqanlarının inkişafı, inzibati nəzarətin həyata keçirilməsi, onların fəaliyyətinin təşkilinə kömək və aparılan maarifləndirmə işləri, görülmüş işlərin statistik göstəriciləri, qanunvericilik məsələləri, beynəlxalq əlaqələr və digər məsələlər öz əksini tapmışdır.

2023-cü il ölkəmiz üçün çox mühüm, əlamətdar hadisələrlə zəngin olmuşdur. Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə dərin ehtiramın ifadəsi olaraq Ulu Öndərin 100 illik yubileyi respublikamızda və onun hüdudlarından kənarda geniş qeyd olunmuşdur.

Bu münasibətlə Heydər

Əliyev irsinə həsr olunan silsilə tədbirlər, o cümlədən "Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmənin banisidir" mövzusunda konfrans keçirilmişdir. Bələdiyyələr tərəfindən də Ulu Öndərin yubileyinə həsr olunan yüzlərlə müxtəlif tədbir, o cümlədən idman və intellektual yarışlar, müsabiqələr, ağacəkmə aksiyaları təşkil edilmişdir.

2023-cü ilin sentyabr ayında bir sutkadan az müddətdə keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda separatizmə birdəfəlik son qoyularaq ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi ən böyük tarixi naliyyətimizdir. Ölkə prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndində üçrəngli bayrağımızın ucaldılması, noyabrın 8-də Xankəndinin mərkəzi meydanında keçirilən Zəfər paradı Azərbaycanın qüdrətini dünyaya bir daha nümayiş etdirdi və hər birimizin qəlbində sonsuz qürur hissi yaratdı.

Bu gün Azərbaycan həm də, azad edilmiş ərazilərimizdə öz gücü hesabına aparılan genişmiqyaslı quruculuq işləri ilə dünyanı heyrətləndirir. İşğal vaxtı büsbütün dağıdılmış, talan edilmiş, minalanmış torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yorulmaz fəaliyyəti, rəhbərliyi və şəxsi nəzarəti ilə sürətlə dirçəlir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə tarixi, mədəni və dini abidələrimiz bərpa olunaraq əvvəlki siması



özünə qaytarılır.

Aparılan genişmiqyaslı quruculuq işləri və ölkəmizin əldə etdiyi tarixi Qələbə bölgədə yeni reallıqlar yaratmış və bu, bəzi qüvvələri narahat etmişdir. Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin 45-ci sessiyasında gündəlikdən kənar olaraq Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı qərəzli bəyannamə qəbul edilməsi təəssüf doğurmuş və Azərbaycan nümayəndə heyəti tərəfindən dərhal Bəyanatla çıxış edilmişdir.

Bununla bağlı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən Konqresin yeni seçilmiş Prezidentinə müraciət ünvanlanaraq kəskin etiraz ifadə olunmuş və müraciətin mətni diplomatik kanallar vasitəsilə Konqresin yeni rəhbərliyinə təqdim edilmişdir.

*Hörmətli deputatlar!*

"Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" ölkə Prezidentinin 07 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən 2024-cü il fevralın 7-də keçirilmiş seçkilərin Azərbaycan Respublikasının müstəqilliyi tarixində ilk dəfə ölkəmizin bütün ərazisini əhatə etməsi, öz doğma yurduna qayıdan minlərlə vətəndaşımızın həmin ərazilərdə səs verməsi böyük qürur və iftixar hissi doğurur. Seçkilərdə ölkə əhalisinin uzun növbələr yaranmaqla böyük coşqu ilə iştirakı və mütləq əksəriyyətinin cənab İlham Əliyevə səs verməsi dövlət başçısının 20 illik uğurlu fəaliyyətinə ümumxalq dəstəyinin ifadəsi oldu. Bu mühüm ictimai-siyasi tədbirin təşkili ilə bağlı bələdiyyələr də qanunvericiliklə üzərlərinə düşən vəzifələri dürüst icra etmişlər.

Ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda bütün sahələri əhatə edən genişmiqyaslı quruculuq işləri, davamlı tərəqqi yerli demokratiyanın, bələdiyyə institunun inkişafına da aiddir.

Ötən il ərzində yerli özünüidarəetmə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə tədbirlər davam etdirilmişdir.

Ölkə Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası məqsədilə Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunlarına və onların tətbiqi ilə bağlı ölkə Prezidentinin Sərəncamına, "Bələdiyyələrin Nümunəvi Reqlamenti"nin və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə müvafiq Fərmanlara

dəyişikliklərlə bağlı layihələr hazırlanmış və aidiyyəti qurumlarla razılaşdırılaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Həmçinin "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və digər Qanunlarda dəyişiklik edilməsi barədə Qanun, və onların tətbiqinə dair Fərman layihələri hazırlanaraq razılaşdırılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir.

Qanunvericilik aktlarına təklif olunan dəyişikliklər bələdiyyə iclaslarının həm də onlayn qaydada keçirilməsini, icrası üçün konkret müddətlər müəyyənləşdirilmiş vəzifələrin icra olunmamasına görə məsuliyyətin nəzərdə tutulmasını, bələdiyyələrin fəaliyyətində hesabatlılığın təmin olunması ilə bağlı normaların təkmilləşdirilməsini, yeni seçilmiş bələdiyyənin ilk iclasının keçirilməsi qaydasını, duracaq və parklanma yerlərinə görə ödənişlərin səmərəli tətbiqi üçün onların məbləğinin faizlə hesablanmasını, yerli ödənişlər üzrə bələdiyyəyə hesabatların təqdim olunması tələbini, belə hesabatların verilməməsinə görə məsuliyyət tədbirlərinin müəyyənləşdirilməsini, bələdiyyə aktlarının inzibati nəzarət orqanına elektron qaydada göndərilməsini və bir sıra digər məsələləri əhatə edir.

Layihələr hazırlanarkən əvvəlki illik məruzələrin Azərbaycan Respublikasının Milli Məclisində müzakirəsi zamanı deputatlar tərəfindən səsləndirilmiş təkliflər nəzərə alınmışdır.

Dövlət idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, müasirləşdirilməsi zərurəti ilə bağlı möhtərəm Prezidentimiz tərəfindən fikirlər səsləndirilib, tapşırıqlar verilib. Yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrin fəaliyyətində səmərəliliyin artırılması da mühüm vəzifələrdəndir. Bələdiyyələrin sayının azaldılması, onların maliyyə-iqtisadi potensialının möhkəmləndirilməsi, yerli əhəmiyyətli məsələlərin həllində fəallıqlarının yüksəldilməsi və digər məsələlərlə bağlı Milli Məclisdə də dəfələrlə təkliflər irəli sürülüb. Bildirmək istərdim ki, bununla bağlı müəyyən işlər görülüb, eyni zamanda bu işlər davam etdirilir və yaxın zamanlarda biz bu sahədə yenilikləri, dəyişiklikləri görəcəyik.

Qanunvericiliyin tələblərinə uyğun olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət tədbirləri davam etdirilmiş, 2023-cü ildə hüquqi ekspertiza üçün təqdim olunan bələdiyyə aktlarının sayı ilk dəfə 100 mini keçərək (o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində - 3.983) ötən illə müqayisədə (2022-ci ildə 92618)8% artmışdır. Nəticədə 96.363 (96%) aktın qanunvericiliyə uyğun olduğu müəyyən edilmişdir. Normativ hüquqi aktların tələblərinə zidd olan 3.800-dən çox aktın "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən dəyişdirilməsi və ya ləğv edilməsi üçün aidiyyəti bələdiyyələrə təkliflər verilmişdir.

Verilmiş təkliflərdən 37-si bələdiyyələr tərəfindən təmin edilmədiyindən, həmin aktların ləğvi və ya dəyişdirilməsi üçün məhkəmələrdə iddialar qaldırılmışdır.

Dövlət başçısının insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların o cümlədən şəhid ailələrinin, müharibə veteranlarının müraciətlərinə xüsusi diqqətlə yanaşılması ilə bağlı tapşırıqlarının icrası gündəlik nəzarətdə saxlanılmışdır. Qanunvericiliklə müəyyən edilmiş qaydada baxılmış 4487 müraciətdən 455-i təmin edilmişdir ki, bu da ötən dövrlə müqayisədə 12% (2022-ci ildə 408) çoxdur. Eyni zamanda şəhid ailə üzvlərinin, müharibə əlilləri və iştirakçılarının (369 nəfər) müraciətlərindən 189-u, başqa sözlə, yarıdan çoxu təmin edilmişdir.

Nazirlik tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət həyata keçirilərkən bələdiyyə torpaqlarının idarə olunması ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunması, yol verilən qanun pozuntularının qarşısının alınması və onları doğuran şəraitin aradan qaldırılması məsələləri daim diqqət mərkəzində saxlanılır.

Həyata keçirilən inzibati nəzarət tədbirləri nəticəsində ümumilikdə 14 min hektardan çox torpaq sahəsinin (o cümlədən 8405 ha örüş sahəsi) bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 1195 ha çoxdur, eyni zamanda bu son 10 ildə ən yüksək nəticədir.

2023-cü ildə bələdiyyə vəsaitinin təyinatına uyğun istifadə olunması, bələdiyyə əmla-

kına sahiblik, istifadə və sərəncam verilməsi sahəsində hesabatlılıq və şəffaflığın təmin edilməsi, korrupsiyaya və digər hüquqpozmalara şərait yaradan halların qarşısının alınması istiqamətində qanunamüvafiq tədbirlər görülmüşdür.

Aparılan araşdırmalar zamanı aşkar edilmiş daha ciddi qanun pozuntuları üzrə 30 halda toplanmış materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti istintaq orqanlarına göndərilmişdir. Həmin materiallardan artıq 15-i üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (178,179,308,309,312, 313, 320-ci maddələri) yəni dələduzluq, mənimsəmə və ya israf etmə, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, rüşvət vermə, vəzifə saxtakarlığı, saxta sənəd hazırlama və satma maddələri ilə cinayət işləri başlanmışdır və millət vəkillərinə təqdim olunan illik Məruzədə bu barədə geniş qeyd edilmişdir.

İl ərzində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 549-cu maddəsi ilə 76 bələdiyyə sədri barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilmiş, həmin protokollar əsasında 63 bələdiyyə sədri məhkəmələr tərəfindən inzibati məsuliyyətə cəlb edilmişdir.

*Hörmətli deputatlar!*

2023-cü ildə bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək, onlara metodoloji yardım göstərilməsi ilə bağlı tədbirlər davam etdirilmişdir. Bələdiyyələrlə aparılan metodoloji işdə yerli büdcə gəlirlərinin artırılması məsələləri xüsusilə diqqətdə saxlanılır. Yerli vergi və ödəniş üzrə ödəyicilərin uçotunun dəqiq aparılması, kənarda qalan vergi obyektlərinin vergiyə cəlb edilməsi ilə bağlı son 3 ildə 900 minə yaxın vergitutma obyektinin Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sisteminə (BAMS-a) daxil edilməsi təmin olunmuşdur. Bələdiyyələrdə vergi uçotunun tam və dəqiq qurulması məqsədilə zəruri məlumatların Əmlak Məsələləri Dövlət Xidmətindən operativ əldə olunması üçün Xidmətin elektron bazasına inteqrasiya işləri ötən ilin noyabr ayında başa çatdırılmışdır. Ötən il BAMS-da uçota alınmış 250 min vergitutma obyektinin məhz 55000-i dekabr ayında uçota götürülmüşdür.

Fiziki şəxslər tərəfindən daşınmaz əmlak alqı-satqı edilərkən həmin əmlaklar üzrə yerli vergi borclarının həll edilməmiş qalması ilə bağlı bələdiyyələri narahat edən məsələnin innovativ yolla həlli məqsədilə BAMS-ın Ədliyyə Nazirliyinin "Elektron Notariat" informasiya sistemi, eləcə də Bələdiyyələrlə iş Portalı ilə inteqrasiyası üzrə işlər aparılır.

Nazirliyin metodiki köməyi ilə görülən işlər nəticəsində son üç ildə yerli büdcə gəlirləri 12 milyon manatdan çox (35%), o cümlədən yerli vergilərdən daxilolmalar 6 milyon manat (43%) artaraq bələdiyyələrin gəlirləri 47,4 milyon manat səviyyəsinə yüksəlmişdir. Yerli büdcə gəlirlərinin artım dinamikası bu il də davam etmişdir. Dövlət Statistika Komitəsinin müvafiq bülleteninə əsasən 2023-cü ilin doqquz ayı ərzində ümumi yerli büdcə gəlirləri 11 faizdən çox - 3,9 milyon manat artmışdır. Həmçinin, bələdiyyələrin təqdim etdiyi məlumatlardan görünür ki, 2023-cü ildə əvvəlki illə müqayisədə 2.5 milyon manat (14%) çox torpaq və əmlak vergisi yığılmışdır.

İl ərzində torpaq icarə haqlarından əvvəlki illər üzrə yaranmış debitor borclarından 2,6 milyon manat borcun yığılması təmin edilmişdir.

2023-cü ildə debitor borclarla bağlı 7.500-dən çox bələdiyyə aktı icra məmurları tərəfindən məcburi icra olunmuş və nəticədə yerli büdcəyə 1,4 milyon manat vəsait ödənilmişdir.

Bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində gördükləri tədbirlər barədə ictimaiyyətin ətraflı məlumatlandırılması daim diqqət mərkəzində olmuşdur. Bu işdə sosial medianın geniş imkanları olduğundan Bələdiyyə Sədrlərinin Əlaqələndirmə Şuralarının hamısının, və bir çox bələdiyyələrin sosial media platformalarında səhifələrinin aktiv saxlanılması təmin olunur. Bələdiyyə fəaliyyəti ilə bağlı hazırlanmış bütün tövsiyələr, keçirilmiş tədbirlər barədə məlumatlar, məqalələr nazirliyin rəsmi saytında, həmçinin "Bələdiyyə fəaliyyəti" bölməsində, sosial platformada və media subyektlərində geniş işıqlandırılmışdır.

Eyni zamanda, Ədliyyə Nazirliyinin tövsiyəsi və metodiki köməkliyi ilə 2023-cü ildə bir sıra bələdiyyələr tərəfindən yerli əhalinin rifahı naminə görülən işlər barədə broşürlər

hazırlanaraq çap edilmiş və bələdiyyələrin ərazisi üzrə vətəndaşlara çatdırılmışdır.

Bununla yanaşı, 2006-cı ildən Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərən İctimai Şuranın tərkibində yerli özünüidarəetmə sahəsində ictimai iştirakçılığın təmin olunması məqsədilə Alt Komitə yaradılmışdır. Komitənin üzvləri həm Bələdiyyələrlə iş mərkəzinin kollektivi, həm Bələdiyyələrin Milli Assosiasiyaları, həm də bələdiyyə nümayəndələri ilə mütəmadi görüşlər keçirmiş, ictimai dinləmə, "Açıq qapı" günlərində və digər tədbirlərdə iştirak etmişlər.

*Hörmətli deputatlar!*

2023-cü ildə bələdiyyə üzv və qulluqçularının hüquqi maarifləndirilməsi də diqqət mərkəzində olmuşdur. Ötən il ümumilikdə 289 maarifçilik tədbiri həyata keçirilmiş, tədbirlərdə iştirak edən bələdiyyə nümayəndələrinin sayı 2022-ci illə müqayisədə 57% artaraq 9 min nəfərə yaxın olmuşdur. Ayrı-ayrı aktual məsələlərə dair 32 tövsiyə hazırlanaraq bütün bələdiyyələrə çatdırılmışdır.

Həmçinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar edilmiş konkret qanun pozuntuları və nöqsanların aradan qaldırılması və ya təkrar törədilməsinin qarşısının alınması məqsədilə ayrı-ayrı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 12.224 tövsiyə (2022-ci ildə 10.374) göndərilmişdir. Tövsiyələrdə toxunulan məsələlər üzrə müvafiq qanunvericiliyin tələbləri ətraflı izah edilmişdir.

Ölkəmizdə yerli özünüidarəetmənin səmərəliliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları, o cümlədən Prezident Administrasiyasının Bələdiyyələrlə iş sektoru, Azərbaycan Respublikasının Milli Məclisi və onun aidiyyəti komitələri ilə sıx əməkdaşlıq davam etdirilmişdir.

Milli Məclisin Regional məsələlər komitəsinin təşkilatçılığı ilə keçirilmiş "Azərbaycanda yerli demokratiyanın, özünüidarəetmənin və regionların inkişafında Heydər Əliyev irsi" və "Qərbi Azərbaycanın dəyişdirilmiş toponimləri" mövzularında ictimai dinləmələrdə nazirliyin rəhbər və məsul şəxsləri tərəfindən iştirak və çıxışlar olmuşdur.

Ötən il ərzində aidiyyəti qurumlarla əməkdaşlıq çərçivəsində yerli özünüidarəetmənin aktual mövzularına həsr olunmuş bir sıra tədbirlər keçirilmiş, xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsinin aparılması diqqətdə saxlanılmışdır. Bələdiyyələrin milli assosiasiyalarının yaxından iştirakı ilə Türkiyə, Şimali Kipr Türk Respublikası, Bosniya və Herseqovina bələdiyyələri və Azərbaycan bələdiyyələri (100-dən çox) arasında tədbirlər təşkil olunmuşdur. Bu tədbirlərdə Türk dünyası ölkələri arasında münasibətlərin daha əhatəli və ardıcıl qurulmasında bələdiyyələrarası əməkdaşlığın xüsusi əhəmiyyəti vurğulanmışdır.

Ötən ilin noyabr-dekabr aylarında "İqtisadi inkişafı dəstəkləyən bələdiyyə sədrləri" layihəsi çərçivəsində BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Nümayəndəliyi tərəfindən Bakı şəhərində və regionlarında, yəni Lənkəran, Mingəçevir, Şəki şəhərlərində təlimlər keçirilmişdir. Tədbirlərdə bələdiyyələrin nümayəndələri, Bələdiyyələrlə iş mərkəzinin və regional ədliyyə idarələrinin əməkdaşları iştirak etmişlər.

*Hörmətli deputatlar!*

Bu il ölkəmizdə bələdiyyələrin yaranmasının 25 ili tamam olur və bununla əlaqədar Ədliyyə Nazirliyi tərəfindən Tədbirlər Planı hazırlanmışdır. Tədbirlər Planında Milli Məclisin Regional məsələlər komitəsi, Bələdiyyələrin Milli Assosiasiyaları və digər aidiyyəti qurumların iştirakı ilə ilboyu silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Çıxışımı yekunlaşdıraraq qeyd etmək istərdim ki, Ümumilikdə 2023-cü il ərzində həyata keçirilən tədbirlər ölkəmizdə bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına, yerli büdcə gəlirlərinin yaxşılaşdırılmasına, bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun artırılmasına və digər aktual məsələlərin həllinə yönəlmişdir.

Cari ildə də bələdiyyələrdə işin səmərəliliyinin artırılması istiqamətində tədbirlər davam etdirilir.

*Diqqətinizə görə təşəkkür edirəm!*

# Xocalı soyqırımı qurbanlarının xatirəsi ədliyyə orqanlarında yad edilib




**Bəşər tarixinə ən dəhşətli faciələrdən biri kimi daxil olmuş 26 fevral - Xocalı soyqırımının otuz ikinci ildönümü ilə əlaqədar Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi soyqırımı qurbanlarının xatirəsinə Bakı şəhərində ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstələri qoyaraq dərin ehtiramlarını bildiriblər.**

Nazirlikdə və struktur qurumlarda keçirilən anım mərasimlərində xalqımıza qarşı əsrlər boyu etnik təmizləmə siyasəti həyata keçirən erməni qəsbkarlarının törətdikləri və xüsusi amansızlığı ilə seçilən soyqırımına ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verildiyi bildirilib.

Ölkə Prezidenti İlham Əliyevin soyqırımını törədənlərin ifşa olunması və əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, faciəyə obyektiv qiymət verilməsi məqsədilə davamlı addımlar atdığı, bu istiqamətdə respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun mühüm fəaliyyəti, o cümlədən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının əhəmiyyəti qeyd olunub.

Vurğulanıb ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi, eləcə də antiterror tədbirləri nəticəsində torpaqlarımız işğaldan azad edilərək ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunub, Xocalı şəhəri separatçılardan təmizlənərək orada üçrəngli bayrağımız vüqarla dalğalanır.

Yığıncaqlarda dövlət başçısı tərəfindən Xocalı şəhərində soyqırımı memorialının təməlinin qoyulduğu xüsusi qeyd olunub, onların ruhlarının xalqımız tərəfindən daim uca tutulduğu bildirilib.

Ədliyyə işçiləri soyqırımı qurbanlarının əziz xatirəsini əbədi ehtiram əlaməti olaraq saat 17:00-da bir dəqiqəlik sükutla yad ediblər. Nazirlikdə Xocalı faciəsindən bəhs edən filmlər, foto-slaydlar nümayiş etdirilib, sosial şəbəkə hesablarında məlumatlar paylaşılıb.

# Belarus ölkəmizdə ədliyyə sahəsində islahatlara və innovasiyalara maraq göstərir

**Azərbaycan və Belarus Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair müxtəlif sahələri əhatə edən sənədlər, o cümlədən ötən ilin noyabrında yeni Əməkdaşlıq Proqramı imzalanaraq uğurla həyata keçirilir, faydalı təcrübə mübadiləsi aparılır.**

Ölkəmizdə ədliyyə sahəsində aparılan islahatlara və tətbiq olunan yeniliklərə böyük maraq göstərilərək bu sahədə müsbət təcrübəmizlə tanış olmaq məqsədilə Belarus ədliyyə nazirinin birinci müavini xanım Nataliya Filippovanın başçılıq etdiyi nümayəndə heyəti 31 yanvar - 3 fevral tarixlərdə Azərbaycanda səfərdə olub.

Qonaqlar əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad edərək abidəsi önünə gül dəstələri qoyub, Şəhidlər xiyabanında Vətən uğrunda canlarını fəda etmiş həmvətənlərimizin məzarlarını ziyarət ediblər.

Nümayəndə heyəti Azərbaycanın ixrac edilən brendi olan "ASAN xidmət" və DOST mərkəzlərində olub, onların fəaliyyəti tanış olaraq heyranlıqlarını bildirib, dövlət xidmətləri sahəsində yeni təcrübə əldə etdiklərini söyləyiblər.

Qonaqlar rəqəmsal ədliyyə, elektron və mobil ədliyyə xid-



mətlərinə, süni intellektin tətbiqi ilə vətəndaşlara məsafədən eyni vaxtda müxtəlif ədliyyə xidmətlərinin göstərilməsini mümkün edən "ƏNTEZ" xidmət platformasına böyük maraq göstəriblər. Bununla bağlı nazirlikdə geniş təqdimat keçirilib, həmçinin DOST mərkəzində "ƏNTEZ"-in fəaliyyəti ilə əyani tanışlıq olub.

Səfər zamanı Ədliyyə Nazirliyində keçirilmiş görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksələn əməkdaşlıq münasibətlərinin müxtəlif, o cümlədən hüquqi sahədə inkişafından məmnunluq ifadə olunub, Ədliyyə nazirlikləri arasında səmərəli qarşılıqlı fəaliyyətə toxunularaq bu əlaqələrin dərinləşdirilməsi üçün geniş perspektivlərin olduğu bildirilib.

Respublikamızda ədliyyə sistemində aparılan islahatlar, o cümlədən vətəndaşlara xidmət sahəsində tətbiq olunan innovasiyalar barədə məlumat verilib, təcrübə mübadiləsinin hər iki tərəf üçün əhəmiyyəti qeyd olunub.

Azərbaycana səfərindən məmnunluğunu bildirən qonaq ölkələrimiz arasında hüquqi sahədə səmərəli əməkdaşlığı vurğulayıb, Ədliyyə Nazirliyinin vətəndaşlara xidmət sahəsində fəaliyyətini yüksək qiymətləndirib.

N.Filippova səfərlə bağlı yüksək təəssüratları ilə bölüşərək bildirib ki, elektron xidmətlərin tətbiqində ölkəmiz mühüm nailiyyətlər əldə edib və nazirlik tərəfindən görülən işlər, rəqəmsal innovasiyaların geniş tətbiqi heyranedicidir. Ədliyyə sisteminin rəqəmsallaşması böyük maraq doğurur və bu sahədə nailiyyətlərdən ilhamlanaraq aparılan islahatlar zamanı Azərbaycan təcrübəsindən bəhrələniləcəkdir. Eyni zamanda əlaqələrimizin müxtəlif, o cümlədən qanunvericilik, notariat sahələrdə dərinləşdirilməsi üçün geniş imkanlar var və qarşılıqlı fəaliyyətin inkişafında maraqlıyıq.

Nümayəndə heyəti nazirlikdə Ədliyyə tarixinə və Vətən müharibəsində Böyük Qələbəmizə həsr olunan muzeylərlə tanış olub. Qonaqlara azad edilmiş ərazilərimizin bərpası ilə bağlı görülən işlər, bu prosesə ciddi əngəl törədən, çoxsaylı insanların ölümünə və yaralanmasına səbəb olan Ermənistanın mina terroru barədə məlumatlar verilib.

# Ucarda vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı qəbulu keçirilib

**Fevralın 23-də ədliyyə naziri vəzifəsini müvəqqəti icra edən nazir müavini Azər Cəfərov Ucar rayonunda vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.**



Dövlət başçısı İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə əsasən təşkil olunan görüşdə Ucar, Zərdab, Kürdəmir və digər rayonlardan olan vətəndaşlar iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin Ucar şəhərində abidəsi ziyarət edilərək əziz xatirəsi dərin ehtiramla yad olunub.

Qəbulda ədliyyə fəaliyyətinin ayrı-ayrı sahələri ilə bağlı müraciətlərə baxılıb, müharibə iştirakçılarının və şəhid ailələrinin qayğıları ilə maraqlanılıb. Onların həlli ilə bağlı müvafiq tədbirlər görülüb, araşdırma tələb edən digər müraciətlər nəzarətə götürülüb.

Azər Cəfərov bölgə sakinləri ilə görüşdə ölkə Prezidentinin fəaliyyətinin və dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının və onun rifahının dayandığını, onların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqların daim diqqətdə saxlanıldığını bildirib.

Vətəndaşlar ölkəmizin ilk dəfə bütün ərazisində yüksək fəallıq və vətəndaş həmrəyliyi ilə keçirilən seçkilərdə yenidən dövlət başçısı seçilməsi münasibətilə cənab Prezident İlham Əliyevə sonsuz məhəbbətini və ehtiramını ifadə ediblər.

Səfər zamanı həmçinin, nazirliyin yerli qurumlarına və məhkəməyə baş çəkilib, infrastrukturu və iş şəraiti ilə tanış olunub. Ədliyyə işçilərinə fəaliyyətin müasir çağırışlara uyğun təşkili, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması ilə bağlı tapşırıq və tövsiyələr verilib.

# Ədliyyə Nazirliyində Gənclər günü münasibətilə tədbir keçirilib

**Ölkə Prezidentinin Sərəncamı ilə 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar 2 fevral - Azərbaycan gəncləri günündə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında gənc ədliyyə işçiləri və könüllüləri ilə tədbir keçirilib.**

Tədbirdə Nazirliyin İnsan resursları baş idarəsinin rəhbəri Rauf Məhərrəmov, İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova və Ədliyyə Akademiyasının prorektoru Elçin Xələfov çıxış edə-

rək ulu öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin uğurla həyata keçirilərək ölkəmizdə müasir düşüncəli, dövlətçiliyə sadiq, vətənpərvər yeni nəsil formalaşdığını, müzəffər xalqın nümayəndələri kimi böyüyən gənclərin ictimai həyatın bütün sahələrində, dövlət idarəçiliyində fəallığının artdığını vurğulayıblar.



Bildirilib ki, dövlət siyasətinə uyğun olaraq ədliyyə orqanlarında gənclər geniş təmsil olunaraq işçilərin təxminən yarısını təşkil edir. Onların işlə təminatı daim diqqətdə saxlanılaraq şəffaf müsabiqə yolu ilə bu günədək 3.400-dən çox şəxs qulluğa qəbul olunub. Nazirliyin Müsabiqə Komissiyası tərəfindən keçirilən müsabiqələrdə uğur qazanan namizədlərin 70%-dən çoxu məhz gənclərdir. Onlar nazirliyin müxtəlif sahələrində uğurla fəaliyyət göstərərək püxtələşir, vəzifələrində yüksəlirlər. Çoxsaylı gənc ədliyyə işçilərinin irəli çəkilərək bu gün respublikamızda müxtəlif dövlət orqanlarında məsul və rəhbər vəzifələrdə çalışmaları məmnunluq doğurur.

Gənc əməkdaşların Vətən müharibəsində əsl vətənpərvərlik nümayiş etdirərək mərdliklə iştirakından və fədakarlığından bəhs olunaraq bu gün ədliyyə orqanlarında 138 nəfər Vətən müharibəsi veteranının çalışdığı qeyd olunub, habelə ədliyyə sistemində könüllülük institutunun geniş təşviqindən söz açılıb.

Tədbirə dəvət olunmuş İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov dövlət başçısı tərəfindən elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili"nin iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi baxımından əhəmiyyətini qeyd edib, bununla bağlı ölkəmizin bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini vurğulayıb.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa



dair prioritetlərinə əsasən ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində aparılan işlərdən danışıb, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin əsas hədəflərindən söz açaraq keçirilən tədbirlərin bu məqsədlərə xidmət etdiyini söyləyib.

Tədbir iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

# Cinayətkarlıqla mübarizədə səmərəli əməkdaşlıq davam etdirilir

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin aidiyyəti qurumları ilə səmərəli əməkdaşlıqda beynəlxalq axtarışa verilmiş cinayət törədilməsində ittiham olunan şəxslərin tutularaq ölkəmizə gətirilməsi ilə bağlı tədbirlər davam etdirilir.**

Fevral ayında İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilən iki nəfər şəxsin nazirlik tərəfindən Azərbaycana ekstradisiyası həyata keçirilib.

Belə ki, etibardan sui-istifadə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirərək külli miqdarda ziyan vurmaqla dələduzluq cinayətinin (AR Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi) törədilməsində ittiham edilmiş Əli Hüseynovun yeri Macarıstan Respublikasında,



2021-ci ildə "Vorld Telekom" MMC-nin Yasamal filialında kredit mütəxəssisi vəzifəsində işləyərkən saxtakarlıq edərək qulluq mövqeyindən istifadə etməklə külli miqdarda özgənin əmlakını ələ keçirtməkdə (AR Cinayət Məcəlləsinin 179.3.2 və 313-cü maddələri) ittiham edilmiş M.Vaqifzadənin yeri isə Almaniyada müəyyən olunub və onlar həbs ediliblər.

Həmin şəxslərin ekstradisiyası ilə bağlı Ədliyyə Nazirliyinin və Baş Prokurorluğun sorğuları və beynəlxalq prosedurlara uyğun nazirliyin təqdim etdiyi zamanətlər əsasında həmin şəxslər Beynəlxalq əməkdaşlıq idarəsinin və Penitensiar xidmətin məsul əməkdaşları tərəfindən ölkəmizə gətirilib və məhkəmənin həbs qərarına əsasən Bakı İstintaq Təcridxanasına yerləşdiriliblər.

Nazirlik tərəfindən bu sahədə tədbirlər davam etdirilərək cinayətkarlıqla mübarizədə müstəsna rolu olan cəzanın labüdlüyü prinsipi təmin edilir, cinayətkarların özlərini istənilən yerdə azad və təhlükəsizlikdə hiss etmələrinin qarşısı alınır.

## Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1 və 3-cü hissələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 49.1, 50.1 və 50.4-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Ali Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1 və 3-cü hissələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 49.1, 50.1 və 50.4-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq elmləri doktoru, professor A.Qasımovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Ali Məhkəməsi (bundan sonra - Ali Məhkəmə) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Əmək Məcəlləsinin (bundan sonra - Əmək Məcəlləsi) 3-cü maddəsinin 1 və 3-cü hissələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - Mülki Prosessual Məcəllə) 49.1, 50.1 və 50.4-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, məhkəmənin icraatında U.Babayevin "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - "Azərbaycan Dəmir Yolları" QSC) Yük Daşımalar Departamentinin İmişli Lokomotiv Deposuna (bundan sonra - Depo) qarşı işdən azad olunma barədə əmrin ləğvi, işə bərpa və məcburi iş buraxmaya görə əmək haqqı tələbinə dair iddia ərizəsi üzrə mülki iş vardır.

İşin halları ondan ibarətdir ki, U.Babayev 2013-cü ildən Depoda çilingər vəzifəsində işləmiş, Deponun rəisi tərəfindən imzalanmış əmrlə Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "a" bəndinə əsasən işdən azad olunmuşdur. Əmək müqavilələrinin elektron sistemindən çıxarışda (əmək müqaviləsinə xitam verilməsi ilə bağlı əmək müqaviləsi bildirişi) əmək müqaviləsinə xitam verilərkən işəgötürən qismində "Azərbaycan Dəmir Yolları"

QSC göstərilmişdir.

Deponun Əsasnaməsindən görünür ki, Depo "Azərbaycan Dəmir Yolları" QSC-nin Yük Daşımalar Departamentinin tabeliyində olan struktur vahididir. Depo hüquqi şəxs deyil və Əsasnaməsi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri tərəfindən təsdiq edilmişdir.

İmişli Rayon Məhkəməsinin 19 avqust 2021-ci il tarixli qətnaməsi ilə iddia təmin edilmişdir.

"Azərbaycan Dəmir Yolları" QSC həmin qətnamədən maraqlarına toxunulan şəxs qismində apellyasiya şikayəti vermiş, dəlillərindən biri iddianın düzgün olmayan cavabdehə qarşı qaldırılması ilə bağlı olmuşdur. Belə ki, iş üzrə cavabdeh qismində qeyd olunmuş Depo "Azərbaycan Dəmir Yolları" QSC-nin tabeliyində fəaliyyət göstərən idarə olmaqla hüquqi şəxs deyil.

Şirvan Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası 14 dekabr 2021-ci il tarixli qətnaməsi ilə apellyasiya şikayətini təmin edib iddianı rədd edərkən gəldiyi qənaəti iddiaçının işdən azad olunması barədə əmrin əmək qanunvericiliyinin tələblərinə uyğun olması ilə əsaslandırmışdır.

İddiaçının həmin qətnamədən verdiyi kassasiya şikayəti Ali Məhkəmənin Mülki Kollegiyasının 3 iyun 2022-ci il tarixli qərarı ilə qismən təmin edilərək apellyasiya məhkəməsinin qətnaməsi ləğv edilmiş, iş yeni apellyasiya baxışına qaytarılmışdır.

Kassasiya instansiyası məhkəməsinin mövqeyinə görə, işəgötürənin səlahiyyətləri nizamnamə ilə tənzimlənir və həmin səlahiyyətlər müvafiq əmrlə (sərəncam və ya qərarla) işəgötürənin müavinlərindən birinə, müəssisədən kənarda yerləşən struktur bölməsinin rəhbərinə həvalə edilə bilər. İddiaçı ilə əmək müqaviləsinin ləğv edilməsi barədə əmri verən Deponun rəisinə bu cür səlahiyyətin verilməsi barədə sübut işdə yoxdur. Buna görə də kassasiya şikayətində irəli sürülmüş "əmri imzalamış şəxsin iddiaya cavab verməli olan tərəf olmaması" barədə dəlil üzrə qəti nəticəyə gəlmək mümkün deyil.

İşə yenidən baxan apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini ləğv edib iddianı rədd edərkən Əmək Məcəlləsinin 3-cü maddəsinin 3-cü hissəsinə və Mülki Prosessual Məcəllənin 49.1, 50.4 və 54.1-ci maddələrinə istinadən gəldiyi qənaəti belə əsaslandırmışdır ki, Deponun Əsasnaməsinə uyğun olaraq Depo rəisinə rəis müavinləri, baş mühəndis və baş mühasib istisna olmaqla, digər işçilərlə əmək müqaviləsi bağlamaq, onu dəyişdirmək və əmək müqaviləsinə xitam vermək səlahiyyəti verilmişdir. Lakin Əsasnamədə, eləcə də hər hansı əlavə əmr və sərəncamda Depoya məhkəmələrdə iddiaçı və ya cavabdeh qismində iştirak etmək səlahiyyətinin verilməsi nəzərdə tutulmamışdır. Odur ki, hazırkı iddia əsl cavabdehə qarşı verilməmişdir.

Həmin qətnamədən verilmiş kassasiya şikayəti ilə bağlı iş üzrə Ali Məhkəmənin Mülki Kollegiyası müəyyən etmişdir ki, məhkəmə təcrübəsində oxşar mübahisələr üzrə işlərə baxılarkən bir qayda olaraq qeyd olunan normalara istinadla hüquqi şəxsin filial və nümayəndəliklərinin, habelə tabeliyində olan digər struktur vahidlərinin öz adından məhkəmədə tərəf (iddiaçı və ya cavabdeh) ola bilməyəcəyi mövqeyi irəli sürülür.

Bu yanaşmanın tərəfdarlarının fikrinə görə, hüquqi şəxsin filial və nümayəndəliyinin, habelə tabeliyində olan digər struktur vahidlərinin hüquqi şəxs tərəfindən ötürülmüş səlahiyyət əsasında işəgötürən qismində əmək müqaviləsinin müstəqil tərəfi kimi çıxış etməsi onun mülki prosessual hüquq və fəaliyyət qabiliyyətinə malik olması anlamına gəlmir və qanunda da bununla bağlı hər hansı xüsusi göstəriş mövcud deyildir.

Belə ki, mülki prosessual hüquq və fəaliyyət qabiliyyəti məhz mülki prosessual qanunvericiliklə tənzimlənən məsələ olmaqla, yalnız hüquqi şəxslərin və qanunda birbaşa nəzərdə tutulmuş hallarda hüquqi şəxs olmayan təşkilatların məhkəmədə tərəf ola biləcəyi nəzərdə tutulmuşdur (Mülki Prosessual Məcəllənin 50.1 və 50.4-cü maddələri).

Digər yanaşma ondan ibarətdir ki, hüquqi şəxsin filial və nümayəndəlikləri, habelə tabe-

liyində olan digər struktur vahidləri işəgötürən olaraq əmək müqaviləsinin müstəqil tərəfi kimi çıxış etdikləri halda, həmin müqavilədən irəli gələn mübahisələr üzrə məhkəmədə iddiaçı və ya cavabdeh ola bilərlər.

Bu yanaşmanın tərəfdarları mövqelərini Mülki Prosessual Məcəllənin 50.4-cü maddəsinə istinadla belə əsaslandırırlar ki, həmin maddəyə əsasən qanunda nəzərdə tutulan hallarda hüquqi şəxs olmayan təşkilatlar da tərəf ola bilərlər. Qeyd olunan təşkilatlara əmək qanunvericiliyi ilə əmək hüquq münasibətlərində müstəqil subyekt kimi iştirak etmək səlahiyyətinin verilməsi, məhz həmin münasibətlərdən irəli gələn məhkəmə mübahisələrində bu maddənin tələbi baxımından "qanunda nəzərdə tutulmuş hal" kimi qiymətləndirilə bilər.

Müraciətedən qeyd edir ki, fikir ayrılığının yaranmasının səbəblərindən biri istinad olunan normada hüquqi şəxs olmayan təşkilatlar dedikdə, konkret olaraq hansı qurumların nəzərdə tutulduğunun aydın şəkildə ifadə olunmaması ilə bağlıdır.

Göstərilənləri nəzərə alaraq müraciətedən sözügedən mübahisələrin düzgün həlli üçün Mülki Prosessual Məcəllənin 50.4-cü maddəsində hüquqi şəxs olmayan təşkilatlar dedikdə kimlərin nəzərdə tutulması, hüquqi şəxsin əmək münasibətlərində tərəf qismində çıxış edən filial və nümayəndəliklərinin, habelə tabeliyində olan digər struktur vahidlərinin həmin münasibətlərdən irəli gələn mübahisələrdə öz adından tərəf ola bilməsinin mümkünlüyü və mümkün olduğu təqdirdə bunun Mülki Prosessual Məcəllənin 50.4-cü maddəsinin mənası baxımından "qanunda nəzərdə tutulmuş hallara" aid edilib-edilməməsi məsələlərinə aydınlıq gətirilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd edir.

Azərbaycan Respublikasının Konstitusiyası (bundan sonra - Konstitusiya) insan və vətəndaş hüquq və azadlıqlarını ən yüksək dəyər olaraq qəbul edərək onların təmin olunmasını dövlətin ali məqsədi kimi müəyyən etmişdir.

Konstitusiyanın 26-cı maddəsinin I hissəsində qeyd edilir ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Həmçinin Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Konstitusiya ilə təminat altına alınan bu hüquq təkcə fundamental hüquq deyil, həm də digər əsas hüquq və azadlıqların lazımi şəkildə həyata keçirilməsini və qorunmasını təmin edən ən səmərəli vasitələrdən biridir.

Müstəqil məhkəmə tərəfindən ədalətli məhkəmə araşdırması əsasında hüquqların səmərəli bərpa edilməsi bir sıra beynəlxalq hüquq aktlarında, o cümlədən "İnsan hüquqları haqqında" Ümumi Bəyannamənin 7, 8 və 10-cu maddələrində, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra - Konvensiya) 6-cı maddəsində öz əksini tapmışdır.

Beləliklə, həm milli, həm də beynəlxalq-hüquqi aktlarda məhkəmə müdafiəsi hüququ insan hüquq və azadlıqlarının ən mühüm müdafiə vasitəsi kimi təsbit edilmişdir və bu hüquq yaranmış mübahisəyə məhkəmədə baxılması və həll olunması ilə realizə edilmiş olur.

Konstitusiya Məhkəməsinin Plenumu L.İ.Binnətovanın şikayəti üzrə 2008-ci il 8 may tarixli Qərarında qeyd etmişdir ki, məhkəmə müdafiəsi hüququ mütləq hüquq olmadığına görə müəyyən şərtlərin mövcudluğunda konkret məhdudiyyətlərə məruz qala bilər. Lakin yalnız qanunvericilik səviyyəsində müəyyən oluna biləcək belə məhdudiyyətlər Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları ləğv edə bilməz. Bu məhdudiyyətlər məhkəmələr tərəfindən özbaşına deyil, hüququn təbiətinə uyğunlaşa bilən, müvafiq hüquqa mütənasib şəkildə və eyni zamanda, bu hüququn hüdudları kimi düzgün tətbiq edilməlidir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyinə əsasən, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində təsbit edilmiş "məhkəmə hüququ" məhkəmənin əlçatan

olmasını, o cümlədən məhkəmədə mülki işlər üzrə iddia qaldırmaq imkanını ehtiva edir. Bununla belə, bu hüquq mütləq deyil və məhdudiyyətlərə məruz qala bilər (Ashingdane Birləşmiş Krallığa qarşı iş üzrə 1985-ci il 28 may, Bellet Fransaya qarşı iş üzrə 1995-ci il 4 dekabr tarixli Qərarlar).

Konstitusiya Məhkəməsinin Plenumu bir daha qeyd edir ki, əsas hüquq və azadlıqların həyata keçirilməsini əhəmiyyətli dərəcədə çətinləşdirən, hüququ istifadəyə yararsız hala gətirən və ya ümumiyyətlə aradan qaldıran məhdudiyyətlər hüququn mahiyyətinə xələl yetirir. Bu səbəbdən hüquqların müdafiəsinin təmin edilməsi və hüquq pozuntularının aradan qaldırılması ilə bağlı hüquqi qaydalar müəyyən edilərkən ədalət və qanunun aliliyi kimi konstitusiya prinsipləri əsas götürülməlidir.

Hüquq və azadlıqların müdafiəsinin ən mühüm elementi olan məhkəmə qarşısında iddiaçı və ya cavabdeh qismində iddia qaldırmaq və ya müdafiə olunmaq hüququnun realizəsi üçün, ilk növbədə, prosessual qaydalara dəqiq riayət olunması mütləqdir. Məhz bu məqsədlə Mülki Prosessual Məcəllə ilə qanunverici mülki məhkəmə icraatının ümumi qaydalarını, prinsip və şərtlərini təsbit etmiş, işdə iştirak edən şəxslərin, o cümlədən tərəflərin dairəsini və onlara qarşı irəli sürülmüş tələbləri, həmçinin hüquq və vəzifələrini müəyyən etmişdir.

Mülki Prosessual Məcəllənin mülki məhkəmə icraatının vəzifələrini təsbit edən 2-ci maddəsinə görə, mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Konstitusiyadan, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır. Məcəllənin 4.1-ci maddəsinə əsasən, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Mülki Prosessual Məcəlləyə görə, prosesdə tərəflər iddiaçı və cavabdeh hesab edilirlər. Fiziki və hüquqi şəxslər, dövlət orqanları və başqa orqanlar iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər. İddia tələbinin yönəldiyi fiziki və hüquqi şəxslər cavabdeh hesab olunurlar (Mülki Prosessual Məcəllənin 50.1 və 50.3-cü maddələri). Qeyd edilməlidir ki, tərəflər konkret mübahisəli hüquq münasibəti üzrə bir-birinə əks olan maraqlara malik şəxslərdir.

Mülki Prosessual Məcəllənin mülki prosessual hüquq qabiliyyətini müəyyən edən 48-ci maddəsinə əsasən, hər bir fiziki və hüquqi şəxs eyni dərəcədə qanunla müəyyən edilən və qanunla yol verilən mülki prosessual hüquqlar əldə etmək və vəzifələr daşımaq qabiliyyətinə (mülki-prosessual hüquq qabiliyyəti) malikdir.

Həmin Məcəllənin 49.1-ci maddəsinə uyğun olaraq, öz fəaliyyəti ilə məhkəmədə hüquqlarını həyata keçirmək və vəzifələrini yerinə yetirmək, işin aparılmasını nümayəndəyə tapşırmaq qabiliyyəti (mülki-prosessual fəaliyyət qabiliyyəti) tam həcmdə yetkinlik yaşına çatmış hər bir fiziki şəxsə və qanunvericiliklə müəyyən edilmiş qaydada qeydə alınmış hüquqi şəxsə məxsusdur.

Göründüyü kimi, işdə iştirak mülki prosessual fəaliyyət qabiliyyətinin olması ilə şərtləndirilməklə fiziki şəxslərdə yetkinlik yaşına çatma halında yaranmış hesab olunur. Hüquqi şəxslərə gəldikdə isə onların mülki prosessual hüquq və fəaliyyət qabiliyyəti eyni anda, hüquqi şəxsin dövlət qeydiyyatına alındığı andan yaranır. Yəni, hüquqi şəxsin mülki prosessual hüquq qabiliyyəti onun maddi hüququn subyekti olduğu andan əmələ gəlir.

Hüquqi şəxsin struktur vahidlərinə münasibətdə isə qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 53.1 və 53.2-ci maddələrinə görə, hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsi nümayəndəlik sayılır. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölməsi isə filial sayılır.

Mülki Məcəllənin 53.3 və 54.2-ci maddələrinə əsasən, hüquqi şəxsin nümayəndəlikləri, filiallar, eləcə də idarələri hüquqi şəxs deyildirlər və hüquqi şəxsin təsdiq etdiyi əsasnamələr üzrə fəaliyyət göstərirlər. Beləliklə, hüquqi şəxsin filial və nümayəndələikləri hüquqi şəxsin təsdiq etdiyi əsasnamədə əks olunmuş hüquqları əldə edir və vəzifələr daşıyır, idarələri də Mülki Məcəllənin 54.3 və 54.4-cü maddələrinə uyğun olaraq, ona təhkim edilmiş əmlak barəsində qanunla müəyyənləşdirilmiş hədlərdə, öz fəaliyyətinin məqsədlərinə, hüquqi şəxsin tapşırıqlarına və əmlakın təyinatına uyğun sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir. İdarənin öhdəlikləri üçün məsuliyyət idarəni yaratmış hüquqi şəxsin üzərinə düşür.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci hissəsinin, 294 və 296-cı maddələrinin şərh edilməsinə dair" 2021-ci il 30 iyul tarixli Qərarında əmək münasibətləri baxımından qeyd etmişdir ki, hüquqi şəxs, onun və xarici hüquqi şəxsin filial və nümayəndəlikləri əmək hüquq münasibətlərinin bərabərhüquqlu subyektləridirlər. Bu cür yanaşma Əmək Məcəlləsinin və onun tənzimlədiyi əmək hüquq münasibətlərinin səciyyəvi xüsusiyyətlərindən irəli gəlir.

Belə ki, mülki hüquq münasibətlərində hüquqi şəxs hər hansı müqavilənin bərabər hüquqlu subyekti olaraq istənilən tərəfi ola bildiyi halda, əmək hüquq münasibətlərində hüquqi şəxs yalnız işəgötürən qismində çıxış edir.

Qanunvericinin Əmək Məcəlləsinin 3-cü maddəsinin 3-cü hissəsində işəgötürənə verdiyi anlayışa görə, işəgötürən tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi (kontrakt) bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə fiziki şəxsdir.

Bununla da qanunverici həm hüquqi şəxs olan mülkiyyətçini, həm də onun təyin etdiyi müəssisə rəhbərlərini işəgötürən olaraq qəbul edir. Lakin filialın və ya nümayəndəliyin, eləcə də digər struktur vahidinin rəhbərinin işəgötürən kimi çıxış etməsini hüquqi şəxsin qəbul etdiyi əsasnamə və ya verdiyi etibarnamə ilə şərtləndirir.

Vurğulanmalıdır ki, hüquqi şəxsin filial və ya nümayəndəliyinin, eləcə də hər hansı struktur vahidinin əmək münasibətlərində tərəf (işəgötürən) olaraq çıxış edə bilmə imkanı onun mülki prosessual fəaliyyət qabiliyyətli olmasını ifadə etmir. Mülki prosessual hüquq və fəaliyyət qabiliyyəti yalnız mülki prosessual qanunvericilikdə müəyyən edilmiş subyektlərə münasibətdə tanınır.

Yuxarıda da qeyd olunduğu kimi, mülki prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq mülki prosesin tərəfi olmaq mülki prosessual fəaliyyət qabiliyyətinə malik olmaqla şərtlənir. Müstəqil şəkildə hüquqlar əldə edə və maddi hüququn subyektinə çevrilə bilməyən, yəni mülki hüquq qabiliyyətinə malik olmayan hüquqi şəxsin struktur bölməsinin müvafiq olaraq müstəqil şəkildə mülki prosessual fəaliyyət qabiliyyəti əldə edə bilməsi və mülki prosesin tərəfi olması da istisna edilir.

Lakin əmək qanunvericiliyinə müvafiq olaraq hüquqi şəxsin təsdiq etdiyi əsasnamə, habelə verdiyi etibarnamə əsasında hüquqi şəxsin struktur bölmələrinin əmək hüquq münasibətlərinin tərəfi qismində çıxış etmək imkanının olduğu nəzərə alınaraq və belə hallarda əmək hüquq münasibətlərinin faktiki tərəfləri arasında yaranmış mübahisənin daha səmərəli həlli baxımından hüquqi şəxsin struktur bölməsinin təmsilçilik (hüquqi şəxsin təsdiqlədiyi əsasnamə, verdiyi etibarnamə) əsasında məhkəmədə hüquqi şəxsin adından çıxış etməsi məqsədəmüvafiq olardı.

Müraciətdə qaldırılan digər məsələ ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, "təşkilat" ifadəsi xüsusi bir hüquqi termin olmamaqla müəyyən sistem daxilində fəaliyyət göstərən, təşkilatlanmış qurumu ifadə edir.

Mülki Prosessual Məcəllənin 50.4-cü maddəsinə əsasən, qanunda nəzərdə tutulan hallarda hüquqi şəxs olmayan təşkilatlar da tərəf ola bilərlər.

Göstərilən norma Mülki

Prosessual Məcəllənin 50-ci maddəsinin digər normaları ilə sistemli əlaqədə olaraq, hər hansı hüquqi şəxs olmayan təşkilat barəsində yalnız qanunvericilikdə xüsusi göstəriş olduğu təqdirdə onun mülki prosesdə tərəf qismində çıxış etməsini mümkün hesab edir.

Qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

-Mülki Məcəllənin 53 və 54-cü maddələrinin hüquqi mahiyyətinə, eləcə də Mülki Prosessual Məcəllənin 49.1-ci maddəsinə müvafiq olaraq, hüquqi şəxsin struktur bölməsi mülki prosessual fəaliyyət qabiliyyətinə malik olmadığına görə, müvafiq məhkəmə mübahisələrində yalnız hüquqi şəxsin adından sonuncunun təsdiq etdiyi əsasnamə və ya verdiyi etibarnamə əsasında çıxış edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 53 və 54-cü maddələrinin hüquqi mahiyyətinə, eləcə də Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 49.1-ci maddəsinə müvafiq olaraq, hüquqi şəxsin struktur bölməsi mülki prosessual fəaliyyət qabiliyyətinə malik olmadığına görə, müvafiq məhkəmə mübahisələrində yalnız hüquqi şəxsin adından sonuncunun təsdiq etdiyi əsasnamə və ya verdiyi etibarnamə əsasında çıxış edə bilər.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

3. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 22 fevral 2024-cü il*

## Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 408.5-ci maddəsinin şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 34-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında "Azəri-K" Şirkətinin şikayəti ilə əlaqədar Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 408.5-ci maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, ərizəçinin şikayətini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

"Azəri-K" Şirkəti "ADEC" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək cavabdehin qanunsuz hərəkətləri nəticəsində vurulmuş zərərin əvəzinin, əldən çıxmış faydanın və s. pulun iddiaçının xeyrinə tutulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı Kommersiya Məhkəməsinin 3 fevral 2022-ci il tarixli qətnaməsi ilə iddia təmin edilməmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 4 iyul 2022-ci il tarixli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

"Azəri-K" Şirkətinin həmin qətnamədən verdiyi kassasiya şikayəti Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 3 oktyabr 2022-ci il tarixli qərardadı ilə geri qaytarılmışdır.

Apellyasiya instansiyası məhkəməsi mövqeyini onunla əsaslandırmışdır ki, kassasiya şikayəti Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - Mülki Prosessual Məcəllə) 407.3-cü maddəsinin tələbinə (vəkil tərəfindən imzalanmaması) və həmin Məcəllənin "Kassasiya şikayətinin forması" adlı 3 saylı Əlavəsi ilə müəyyən olunan forma və məzmuna uyğun tərtib edilməmişdir.

İddiaçının həmin qərardaddan verdiyi kassasiya şikayəti Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının (bundan sonra - Ali Məhkəmənin Kommersiya Kollegiyası) 22 noyabr 2022-ci il tarixli qərarı ilə təmin edilməmiş, apellyasiya instansiyası məhkəməsinin qərardadı dəyişdirilmədən saxlanılmışdır.

"Azəri-K" Şirkəti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) şikayətlə müraciət edərək Ali Məhkəmənin Kommersiya Kollegiyasının 22 noyabr 2022-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına (bundan sonra - Konstitusiya) uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Ərizəçinin qənaətinə görə, məhkəmələrin işin hallarına formal yanaşması onun Konstitusiyanın 60-cı maddəsinin I hissəsindən irəli gələn hüquq və azadlıqlarının məhkəmə təminatı hüququnun pozulması ilə nəticələnmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, şikayətdə qaldırılmış məsələ Mülki Prosessual Məcəllənin məhkəmə qərarlarından şikayət verilməsi qaydalarını müəyyən edən bir sıra normalarının, o cümlədən həmin Məcəllənin 408.5-ci maddəsinin hüquqi mahiyyətinin və təyinatının Konstitusiyanın 60-cı maddəsi və məhkəmə müdafiəsi hüququ ilə bağlı Konstitusiya Məhkəməsi Plenumunun əvvəlki qərarlarında formalaşdırdığı hüquqi mövqeləri baxımından açıqlanması zərurətini yaradır. Bu səbəbdən Konstitusiya Məhkəməsinin Plenumu Mülki Prosessual Məcəllənin 408.5-ci maddəsinin xüsusi konstitusiya icraatı qaydasında şərh edilməsi qərarına gəlmişdir.

Belə ki, bir sıra hallarda kassasiya şikayətinin qanunvericiliklə müəyyən edilmiş forma və məzmunda tərtib edilməməsi əsası ilə geri qaytarılması ərizəçinin təqsiri olmadan, obyektiv səbəblərdən kassasiya şikayətinin verilməsi müddətinin ötürülməsi ilə nəticələnir. Bu isə şəxsin şikayətinin qaytarılmasına səbəb olan çatışmazlıqları aradan qaldırdıqdan sonra təkrarən məhkəməyə müraciət etmək hüququndan bir qayda olaraq məhrum olmasına səbəb olur.

Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə müvafiq olaraq, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüququ hər kəsin məhkəməyə müraciət etmək hüququ ilə yanaşı, işinin ədalətli araşdırılmasını, eləcə də hüquq və azadlıqları pozulduğu halda məhkəmə aktlarından qanunvericiliklə müəyyən edilmiş qaydada yuxarı instansiya məhkəmələrinə şikayət vermək hüququnu da ehtiva edir.

Konstitusiyanın 60-cı maddəsində nəzərdə tutulan məhkəmə müdafiəsi təminatı ilə bağlı rəhbər müddəa yalnız birinci instansiyada məhkəmə müdafiəsinin təmin olunmasını deyil, onun həmçinin apellyasiya və kassasiya instansiyalarında həyata keçirilməsini ehtiva edir. Hər hansı məhkəmə instansiyasına şikayət etmək

hüququ məhkəmə müdafiəsi hüququndan irəli gəlir. Bu hüquq demokratik cəmiyyətdə mövcud olmaqla dövlətin konstitusiyası və qanunlarında öz əksini tapır. Sözügedən hüququn pozulması bütövlükdə məhkəmə müdafiəsi hüququnun həyata keçirilməsini əhəmiyyətsiz edir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 359-cu maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə, 26-cı maddəsinə, 60-cı maddəsinin I hissəsinə və 71-ci maddəsinin I və II hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2003-cü il 25 fevral və "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2015-ci il 22 may tarixli Qərarları).

Məhkəməyə müraciət etmək hüququnun əsassız məhdudlaşdırılması və ya nəzərdə tutulmaması son nəticədə Konstitusiyada müdafiəsinə təminat verilən hüquqların bəyanedici xarakter daşıdığına dəlalət etmiş olur (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 71.1-ci maddəsinin şərh edilməsi haqqında" 2010-cu il 13 dekabr tarixli Qərarı).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra - Avropa Məhkəməsi) də məsələyə dair oxşar mövqelər ifadə etmişdir. Belə ki, Golder Birləşmiş Krallığa qarşı iş üzrə 1975-ci il 21 fevral tarixli Qərarda qeyd olunmuşdur ki, məhkəmə araşdırması hüququnun bir aspektini təşkil edən məhkəməyə müraciət etmək hüququ "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra - Konvensiya) 6-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulan hüququn ayrılmaz elementidir (§36). Məhkəməyə müraciət etmək hüququ mütləq deyil və məhdudiyyətlərə məruz qala bilər, çünki müraciət etmək hüququ öz təbiətinə görə dövlət tərəfindən tənzimləməni tələb edir və həmin tənzimləmə cəmiyyətin və fərdlərin ehtiyaclarına uyğun olaraq müxtəlif vaxtlarda və müxtəlif yerlərdə dəyişə bilər (Ashingdane Birləşmiş Krallığa qarşı iş üzrə 1985-ci il 28 may tarixli Qərar §57). Lakin qoyulan məhdudiyyətlər bu hüququn mahiyyətinə xələl gətirəcək dərəcədə şəxsin məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdırmamalıdır. Onlar legitim məqsəd güdməli və istifadə olunan vasitələr və güdülən məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi olmalıdır (Fayed Birləşmiş Krallığa qarşı iş üzrə 1994-cü il 21 sentyabr §65; Bellet Fransaya qarşı iş üzrə 1995-ci il 4 dekabr tarixli §31 Qərarlar).

Konstitusiya Məhkəməsinin Plenumu "E.Axundovun məhkəməyə müraciət hüququnun pozulması barədə şikayətinə dair" 2023-cü il 6 oktyabr tarixli Qərarında göstərmişdir ki, məhkəməyə əlçatanlıq müdafiəyə ehtiyacı olan şəxs üçün ədalət mühakiməsinin təmin edilməsinin zəruriliyini nəzərdə tutmaqla, həmin şəxsin yaranmış vəziyyətlə bağlı məhkəmənin simasında dövlətin mövqeyini bilmək hüququnu da ehtiva edir. Konstitusiyada təsbit edilmiş insan hüquq və azadlıqları ilə bağlı digər qanunvericilik aktlarında əks olunmuş tənzimləyici normalar müvafiq konstitusiya normalarının tətbiqini mümkünsüz etməməli, əksinə məhkəmə tərəfindən konstitusion hüquqların realizəsinə, təməl prinsiplərin rəhbər tutulmasına imkan yaratmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, məhkəməyə müraciət hüququnun həyata keçirilməsinin qanunvericiliklə müəyyən olunmuş prosessual tələblərlə şərtləndirilməsi qəbuledilən olsa da, həmin normalar şəxsi məhkəməyə müraciət etmək hüququndan məhrum edəcək dərəcədə hədsiz formallıqdan uzaq olmalıdır.

Məhkəmə müdafiəsi hüququnun realizəsi qaydalarını müəyyən edən Mülki Prosesual Məcəllənin 10-1.1 və 10-1.2-ci maddələrinə əsasən, elektron qaydada mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatı bu Məcəllə ilə müəyyən edilmiş ümumi prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılır. Məhkəmə və proses iştirakçıları tərəfindən ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi "Elektron məhkəmə" informasiya siste-

mindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə "elektron məhkəmə" informasiya sisteminin tətbiqinin təmin edilməsi, fiziki və hüquqi şəxslərin "elektron məhkəmə" informasiya sistemindən istifadəsinin təşviq edilməsi üçün tədbirlərin görülməsi müəyyən olunmuşdur. Nəzərə alınmalıdır ki, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi vətəndaşların məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, icraatın effektivliyinin yüksəldilməsi məqsədini daşıyır ki, bu da yeni, elektron müraciət vasitələrinin şəxslərin məhkəməyə müraciətinə maneə yaratmaq, məhkəmə əlçatanlığını çətinləşdirmək vasitəsi kimi nəzərdən keçirilməsini istisna edir.

Mülki Prosessual Məcəllənin 405 və 406-cı maddələrinin tələblərinə görə, apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən kassasiya şikayəti işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində, qərardadından kassasiya şikayəti isə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 10 gün müddətində verilir. Kassasiya şikayəti yazılı formada apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə verilir.

Kassasiya şikayətinin forması və məzmunu ilə bağlı tələblər həmin Məcəllənin 407.1-ci maddəsi ilə tənzimlənir. Kassasiya şikayəti Mülki Prosessual Məcəllənin 402 və 407.1-ci maddələrinin tələblərinə cavab vermirsə, imzalanmamışsa, yaxud onu imzalamağa hüququ olmayan və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanmışsa, habelə kassasiya şikayəti vermək hüququ olmayan şəxs tərəfindən verilmişdirsə kassasiya şikayəti apellyasiya instansiyası məhkəməsi tərəfindən qaytarılır (Mülki Prosessual Məcəllənin 408.1.1-ci maddəsi).

Mülki Prosessual Məcəllənin 408.5-ci maddəsi ilə müəyyən edilmişdir ki, bu Məcəllənin 408.1.1-408.1.5 və 408.1.7-ci maddələrində göstərilən nöqsanlar aradan qaldırıldıqdan sonra, şikayəti verən şəxs yenidən ümumi qaydada kassasiya şikayəti ilə müraciət edə bilər.

Normaların məzmunundan göründüyü kimi, apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən verilən kassasiya şikayəti qanunvericiliklə müəyyən edilən tələblərə cavab vermədiyi halda, şikayət verən şəxsin nöqsanların aradan qaldırılmasından sonra yenidən ümumi qaydada kassasiya şikayəti vermək hüququ təsbit edilmişdir. Lakin hər bir halda nöqsanların aradan qaldırılması üçün geri qaytarılmış şikayətin yenidən verilməsi də Mülki Prosessual Məcəllənin 405 və 406-cı maddələrində nəzərdə tutulmuş müddətlərlə məhdudlaşır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, kassasiya şikayətinin Mülki Prosessual Məcəllənin 405-ci maddəsi ilə nəzərdə tutulmuş müddət (2 ay) keçdikdən sonra və ya bu müddətin keçməsinə az vaxt qala geri qaytarıldığı halda, şikayətdəki nöqsanların aradan qaldırılmasından sonra yenidən məhkəməyə müraciət edilə biləcəyi prosessual müddət qanunvericiliklə müəyyən edilməmişdir. Bu isə bəzən şəxsin təqsiri olmadan, obyektiv səbəblərdən məhkəməyə şikayət verməklə bağlı qanunvericiliklə müəyyənləşdirilmiş müddətlərin ötürülməsi ilə nəticələnir, lakin belə hallar məhkəmələr tərəfindən üzürlü səbəb olaraq qiymətləndirilmir. Nəzərə alınmalıdır ki, Mülki Prosessual Məcəllənin 133.1-ci maddəsinə uyğun olaraq məhkəmə qanunla müəyyən edilmiş müddətin buraxılmasının səbəbini üzürlü hesab edərsə, işdə iştirak edən şəxsin ərizəsinə əsasən buraxılmış müddəti bərpa edir. Nəticədə şəxs şikayətin qaytarılmasına səbəb olan çatışmazlıqları aradan qaldırdıqdan sonra təkrarən məhkəməyə müraciət etmək hüququndan məhrum olur ki, bu da məhkəmə müdafiəsi hüququnun konstitusion mahiyyəti və təyinatı ilə uzlaşmır.

Göstərilənlər baxımından Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, məhkəmələr tərəfindən şikayət verən şəxsin kassasiya şikayətinin qaytarılmasına səbəb olan nöqsanları aradan qaldıraraq yenidən məhkəməyə müraciət etməsi üçün müvafiq müddətin qanunvericilik qaydasında müəyyən edilməsi məqsədə-

müvafiq olar. Bu, şəxslərin Konstitusiyanın 60-cı maddəsinin I hissəsində və Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi baxımından zəruridir.

Kassasiya şikayətinin qaytarılmasına səbəb olan nöqsanların aradan qaldırılması üçün müddətin müəyyən edilməsi bir sıra ölkələrin qanunvericiliyində də nəzərdə tutulmuşdur. Məsələn, Rusiya Federasiyası Mülki Prosessual Məcəlləsinin 378.2-ci maddəsinə əsasən, kassasiya şikayətinin və ya təqdimatın hərəkətsiz saxlanılması haqqında qərardadda hakim şikayətin hərəkətsiz saxlanılmasının əsaslarını göstərməklə onların aradan qaldırılması üçün ağlabatan müddət müəyyən edir.

Beləliklə, Mülki Prosessual Məcəllənin kassasiya şikayətinin qaytarılmasını tənzimləyən 408.5-ci maddəsinin hazırkı redaksiyası kassasiya şikayəti verən şəxsin məhkəmə müdafiəsi hüququnun səmərəli həyata keçirilməsinə tam təminat verə bilmir.

Nəzərə alınmalıdır ki, qanunvericilikdə boşluq hüquqi məsələni tənzimləyən normativ mətnin olmamasını və ya natamam olmasını özündə ehtiva etməklə, Konstitusiya ilə nəzərdə tutulmuş hüquq və azadlıqların həyata keçirilməsində məhdudiyyətlər yarada bilər.

Qeyd edilməldir ki, qanunvericilikdə boşluğun aradan qaldırılması ümumi qaydada məhz normanın qanunverici orqan tərəfindən təkmilləşdirilməsi yolu ilə mümkündür.

Qanunvericilikdə boşluq mahiyyətcə qeyri-konstitusion norma ilə eyni hüquqi nəticəyə malikdir və onun aradan qaldırılması ümumi qaydada qanunvericinin funksiyasına (səlahiyyətinə) aid olsa da, həmçinin konstitusiya məhkəmə icraatı vasitəsi ilə aradan qaldırıla bilər. (Konstitusiya Məhkəməsinin Plenumunun "E.Axundovun məhkəməyə müraciət hüququnun pozulması barədə şikayətinə dair" 2023-cü il 6 oktyabr tarixli Qərarı).

Bununla yanaşı Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunvericilik qaydasında müvafiq tənzimlənmə həyata keçirilənədək Konstitusiyanın 60-cı maddəsinin I hissəsində və Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət hüququnun təmin edilməsi üçün şikayət verən şəxsin kassasiya şikayətinin qaytarılmasına səbəb olan nöqsanları aradan qaldıraraq yenidən məhkəməyə müraciət etməsi üçün ağlabatan müddətin hakim tərəfindən müvafiq qərardad ilə müəyyən edilməsi məqsədəmüvafiqdir.

Oxşar hüquqi mövqe Avropa Məhkəməsinin Sovtransavto Holding Ukraynaya qarşı iş üzrə 2006-cı il 26 may tarixli Qərarında da sərgilənmişdir. Belə ki, həmin Qərara əsasən, Ukrayna Ali İqtisad Məhkəməsi 2 aprel 2002-ci il tarixli qərardadı ilə şikayətə baxılması üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənədi təqdim etmədiyi üçün ərizəçinin kassasiya şikayətini mahiyyəti üzrə baxmadan rədd etmiş, 26 aprel 2002-ci il tarixli qərardadı ilə isə ərizəçinin şikayətini onun verilməsi üçün müəyyən edilmiş bir aylıq müddət keçdiyinə görə rədd etmişdir. Avropa Məhkəməsi qeyd etmişdir ki, Ali İqtisad Məhkəməsi formal çatışmazlıqları aradan qaldırdıqdan sonra ərizəçinin yenidən kassasiya şikayəti verə biləcəyini bildirsə də, şikayətin verilməsi üçün müəyyən edilmiş bir aylıq müddətin buraxılacağından xəbərsiz ola bilməzdi. Lakin o, nə 2 aprel 2002-ci il tarixli qərardadında bu məsələyə toxunmuş, nə də ərizəçiyə kassasiya şikayətinə düzəliş etmək üçün dəqiq müddət müəyyən etmişdir (§ 81).

Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd edir ki, məhkəməyə şikayət verilməsi üçün müddətlərin axımının müvafiq məhkəməyə müraciətin edilməsi ilə dayanması qaydası da istisna edilmir. Belə bir tənzimetmənin də qanunverici orqan tərəfindən müəyyən edilməsi fiziki və hüquqi şəxslərin məhkəmə müdafiəsi hüququnun real təmin edilməsi baxımından məqbul hesab oluna bilər.

İş materiallarından görünür ki, ərizəçinin kassasiya şikayətini geri qaytaran apellyasiya instansiyası məhkəməsi və sonuncunun bununla bağlı qərardadını qüvvədə saxlayan Ali Məhkəmənin Kommersiya Kollegiyası Mülki Prosessual Məcəllənin 407.3-cü maddəsinə istinadən kassasiya şikayətini vəkil tərəfindən imzalanmaması və həmin Məcəllənin "Kassasiya şikayətinin forması" adlı 3 saylı Əlavəsinə uyğun forma və məzmunda tərtib edilməməsi

səbəbindən geri qaytarmışlar.

Ərizəçi qanunvericiliyin tələbinə uyğun olaraq kassasiya şikayətində olan nöqsanları aradan qaldıraraq yenidən ümumi qaydada kassasiya şikayəti vermədən, Konstitusiya Məhkəməsinə şikayət ünvanlayaraq Ali Məhkəmənin Kommersiya Kollegiyasının mübahisələndirilən qərarı ilə Konstitusiya ilə təminat verilən məhkəməyə müraciət hüququnun pozulduğunu iddia etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, "Azəri-K" Şirkəti Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 3 oktyabr 2022-ci il tarixli qərardadında göstərilmiş nöqsanları aradan qaldırmaqla, habelə kassasiya şikayətinin verilmə müddətinin ötürülməsi halında bu müddətin bərpası barədə müvafiq ərizə əlavə olunmaqla yenidən kassasiya şikayəti ilə məhkəməyə müraciət etməkdə haqlıdır.

Konstitusiya Məhkəməsinin Plenumu hazırkı iş üzrə məhkəmələrin diqqətini ona cəlb etməyi vacib bilir ki, prosessual qaydalara riayət edilməsi məsələsinə formal yanaşılmamalı və bu Qərarda ifadə edilmiş hüquqi mövqelər nəzərə alınmaqla "Azəri-K" Şirkətinin kassasiya şikayətinə yenidən baxılması məsələsi nəzərdən keçirilməlidir.

Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsasları Konstitusiya və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra - "Konstitusiya Məhkəməsi haqqında" Qanun) ilə müəyyən edilmişdir.

Konstitusiyanın 130-cu maddəsinin V hissəsinə əsasən, hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər.

Əsas Qanunda təsbit edilmiş bu məsələlərlə əlaqədar konstitusiya nəzarətinin həyata keçirilməsinin müəyyən xüsusiyyətləri vardır.

Belə ki, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 34.2 və 34.3-cü maddələrinə görə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş məsələyə dair şikayətə Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına barəsində şikayət edilən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına uyğun olmayan normativ hüquqi akta əsaslandığı hallarda yol verilir. Bu qanunun 34.2-ci maddəsində nəzərdə tutulmuş hallarda Ali Məhkəmə tərəfindən baxılmış işin faktiki hallarının yoxlanılmasına yol verilmir.

Konstitusiya Məhkəməsinin Plenumu hazırkı iş üzrə xüsusi konstitusiya icraatının gedişində ərizəçinin şikayətini və ona əlavə edilmiş sənədləri ətraflı təhlil edərək belə qənaətə gəlir ki, mübahisələndirilən məhkəmə aktında "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 34.2-ci maddəsi ilə nəzərdə tutulmuş kassasiya instansiyası məhkəməsinin qərarının Konstitusiyaya və ya qanunlara, habelə onların konstitusiya hüquqi mənasına uyğun olmayan normativ hüquqi akta əsaslanma halı mövcud deyildir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Mülki Prosessual Məcəllənin 408.5-ci maddəsində şikayət verən şəxsin kassasiya şikayətinin qaytarılmasına səbəb olan nöqsanları aradan qaldıraraq yenidən müraciət edə bilməsi üçün müvafiq müddətin müəyyən olunmaması Konstitusiyanın 60-cı maddəsinin I hissəsinin tələblərinə cavab verməyən, şəxslərin hüquq və azadlıqlarını və məhkəmə əlçatanlığını məhdudlaşdıran hal kimi qiymətləndirilməlidir.

Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla, şəxsin kassasiya şikayətinin qaytarılması barədə qərardadda göstərilən nöqsanları aradan qaldırdıqdan sonra yenidən kassasiya şikayəti ilə müraciət edə biləcəyi müddətin müəyyən edilməsinə dair Mülki Prosessual Məcəlləyə müvafiq dəyişikliklərin həyata keçirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmalıdır;

- Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə və bu Qərarın təsviri-əsaslandırıcı hissə-

sində əks olunan hüquqi mövqelərə əsasən, məsələ qanunvericilik qaydasında həll edilənədək şəxsin kassasiya şikayətinin qaytarılmasına səbəb olan nöqsanları aradan qaldıraraq yenidən məhkəməyə müraciət edə biləcəyi ağlabatan müddət hakim tərəfindən müəyyən edilməlidir;

- Ali Məhkəmənin Kommersiya Kollegiyasının 22 noyabr 2022-ci il tarixli qərarında Konstitusiyaya və ya qanunlara uyğun olmayan normativ hüquqi akta əsaslanma halı aşkar olunmadığına görə həmin qərar Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə uyğun hesab edilməlidir.

Ərizəçi "Azəri-K" Şirkətinə izah edilsin ki, Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 3 oktyabr 2022-ci il tarixli qərardadında göstərilmiş nöqsanları aradan qaldırmaqla, habelə kassasiya şikayətinin verilmə müddətinin ötürülməsi halında bu müddətin bərpası barədə müvafiq ərizə əlavə olunmaqla yenidən kassasiya şikayəti ilə məhkəməyə müraciət etməkdə haqlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V və IX hissələrini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 34, 52, 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 408.5-ci maddəsində şikayət verən şəxsin kassasiya şikayətinin qaytarılmasına səbəb olan nöqsanları aradan qaldıraraq yenidən müraciət edə bilməsi üçün müvafiq müddətin müəyyən olunmaması Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinin tələblərinə cavab verməyən, şəxslərin hüquq və azadlıqlarını və məhkəmə əlçatanlığını məhdudlaşdıran hal kimi qiymətləndirilməlidir.

Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla, şəxsin kassasiya şikayətinin qaytarılması barədə qərardadda göstərilən nöqsanları aradan qaldırdıqdan sonra yenidən kassasiya şikayəti ilə müraciət edə biləcəyi müddətin müəyyən edilməsinə dair Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə müvafiq dəyişikliklərin həyata keçirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

2. Azərbaycan Respublikası Konstitusiyasinın 60-cı maddəsinin I hissəsinə və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelərə əsasən, məsələ qanunvericilik qaydasında həll edilənədək şəxsin kassasiya şikayətinin qaytarılmasına səbəb olan nöqsanları aradan qaldıraraq yenidən məhkəməyə müraciət edə biləcəyi ağlabatan müddət hakim tərəfindən müəyyən edilməlidir.

3. Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının 22 noyabr 2022-ci il tarixli qərarında Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına uyğun olmayan normativ hüquqi akta əsaslanma halı aşkar olunmadığına görə həmin qərar Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğun hesab edilsin.

Ərizəçi "Azəri-K" Şirkətinə izah edilsin ki, Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 3 oktyabr 2022-ci il tarixli qərardadında göstərilmiş nöqsanları aradan qaldırmaqla, habelə kassasiya şikayətinin verilmə müddətinin ötürülməsi halında bu müddətin bərpası barədə müvafiq ərizə əlavə olunmaqla yenidən kassasiya şikayəti ilə məhkəməyə müraciət etməkdə haqlıdır.

4. Qərar dərc olunduğu gündən qüvvəyə minir.

5. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 27 fevral 2024-cü il*

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Çağrı Mərkəzi: 881
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir